## Müdafiə Nazirliyi təkzib etdi

### Hərbçilərin qar uçqununa düşməsi barədə xəbərlər yalandır



**Bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusunun guya qar uçqunu altında qalması nəticəsində xəsarət alması barədə məlumatlar yayılıb.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, xəbər yalandır və həqiqəti əks etdirmir:

"KİV nümayəndələrinə bir daha müraciət edərək rəsmi təsdiqini tapmayan məlumatları yaymamağı tövsiyə edirik".

## Bayram günlərində 47 yol qəzası olub, 12 nəfər ölüb

**Azərbaycanda 5 qeyri-iş günündə respublikanın avtomobil yollarında ölümlə və xəsarətlə nəticələnən 47 yol-nəqliyyat hadisəsi baş verib.**

Bunu APA-ya açıqlamasında Baş Dövlət Yol Polisi İdarəsinin rəsmisi, polis polkovnik-leytenantı Mübariz Ağayev deyib.

O bildirib ki, maneəyə vurma nəticəsində 3 nəfər, toqquşma nəticəsində 1 nəfər, piyada vurma nəticəsində 3 nəfər, aşma nəticəsində isə 5 nəfər həyatını itirib: "Vətəndaşlarımıza, sürücülərə müraciət edərək bildiririk ki, gündün, saatından asılı olmayaraq hər bir yol iştirakçısı hüquq və vəzifələrinə riayət etməli, özünün və digər hərəkət iştirakçılarının həyat və sağlamlığını təhlükə altına atmamalıdır".

## AZAL Almatı şəhərinə reysləri ləğv edib



### Qərar Qazaxıstanda baş verən hadisələrlə əlaqədar qəbul olunub

**AZAL Almatı şəhərinə həyata keçirilən reysləri ləğv edir.**

Bu barədə "Azərbaycan Hava Yolları QSC"-nin Mətbuat Xidmətindən bildirilib.

Qeyd edilib ki, qərar Qazaxıstanda baş verən hadisələrlə əlaqədar qəbul edilib.

"Bakı-Almatı marşrutu üzrə və əks istiqamətdə reyslərə bilet almış bütün sərnişinlərə biletin dəyəri tam geri qaytarılacaq və ya pulsuz yenidən rezervasiya təklif olunacaq", - məlumatda vurğulanıb.

*Xatırladaq ki, Bakı-Almatı üzrə reyslər aviaşirkət tərəfindən həftənin cümə günləri, Almatı-Bakı reysi isə şənbə günləri həyata keçirilirdi.*


№ 1 (5523), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 yanvar 2022-ci il (cümə axşamı)




## 2022-ci il "Şuşa İli" elan edildi

### Prezident İlham Əliyev sərəncam imzalayıb

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb.

(səh.2)

## Türkiyə və Ermənistanın xüsusi nümayəndələri yanvarın 14-də görüşəcəklər




**Türkiyə və Ermənistanın xüsusi nümayəndələri ilk görüşlərini yanvarın 14-də Rusiyanın paytaxtı Moskva şəhərində keçirəcəklər.**

Məlumatı Türkiyə Xarici İşlər Nazirliyi yayıb.

Qeyd edək ki, Türkiyə tərəfi təcrübəli diplomat səfir Sərdar Kılıçı Ermənistan üzrə xüsusi nümayəndə təyin edib. Qarşı tərəfin Türkiyə üzrə təyin etdiyi xüsusi nümayəndə isə Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyandır.

Hələlik xüsusi nümayəndələrin ilk görüşünün gündəliyi barədə heç bir açıqlama yoxdur.

# Qazaxıstan hərbi yardım istədi

### Prezident Tokayev ölkədəki vəziyyətlə bağlı KTMT-yə müraciət edib









**Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev ölkədəki vəziyyətlə bağlı KTMT-yə müraciət edib.** Qazaxıstanın dövlət başçısı Təhlükəsizlik Şurasının fövqəladə iclasında bildirib ki, terror dəstələri beynəlxalq xarakter daşıyır, xaricdə ciddi təlim keçiblər və onların Qazaxıstana hücumu təcavüz aktı kimi qiymətləndirilə bilər və edilməlidir.

"Bununla əlaqədar, Kollektiv Təhlükəsizlik Müqaviləsi əsasında bu gün (dünən) KTMT rəhbərlərinə müraciət etdim ki, bu terror təhlükəsinin aradan qaldırılmasında Qazaxıstana yardım etsinlər. Əslində bu, təhlükə deyil, ərazi bütövlüyünə zərbə vurmaqdır", - deyə Tokayev bildirib.

Xatırladaq ki, Almatıda və Qazaxıstanın qərbində baş verən iğtişaşlar səbəbindən bütün Qazaxıstanda fövqəladə vəziyyət tətbiq edilib.

Səkkiz nəfər polis zabiti və milli qvardiyaçının öldüyü məlumdur. Yerli KİV Almatıda talan baş verdiyini yazır.

(səh.2)



## Uşaqlar arasında yayılmış xəstəlik bildiyimiz, tanıdığımız qripdir

### "Bəzən valideynlər uşaq öskürən kimi dərman içirtməyə başlayır, bu yanlışdır"

**Uşaqlar arasında yayılan xəstəlik artıq sosial şəbəkələrin əsas müzakirə mövzusudur. Sosial şəbəkə istifadəçiləri həkimlərdən əlini üzüb, bir-birinə məsləhət verir. Biri yazır ki, "3 gündür uşaq qızdırma ilə savaşır. Xəstəxanalarda isə yer yoxdur, sanki uşaqlara bəla gəlib ancaq".**

Ona cavab olaraq da min cür tövsiyələr qeyd edilir. Biri yazır, "nəbadə, xəstəxanaya aparasınız, evdə müalicə edin.

(səh.4)

## Yazda Ermənistanla sərhədlərin müəyyənləşməsinə başlanacaq

### Azərbaycan Qarabağdakı ermənilərlə bağlı dövlət proqramını bu il açıqlaya bilər

2022-ci ildə Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiya və demarkasiya üzrə ikitərəfli komissiyanın yaradılması ehtimalı böyükdür. Moskva ABŞ-Rusiya qarşıdurması fonunda siyasi mübarizənin əsas cəbhələrindən olan Cənubi Qafqazda özünün vasitəçiliyi ilə əldə olunan razılaşmanın praktiki mərhələyə keçməsini istəyir.



(səh.4)



## "ABŞ-ın Qazaxıstandakı etiraz aksiyalarında iştirakı yoxdur"

### Psaki iddiaları ağılsızlıq adlandırıb

**"Qazaxıstanda baş verən etirazlarda ABŞ-ın əli olması ilə bağlı iddialar ağılsızlıq və yalandır".**

APA xəbər verir ki, bunu Ağ Evin mətbuat katibi Cen Psaki brifinqdə deyib.

O bildirib ki, Qazaxıstanda baş verənlərin arxasında ABŞ-ın dayandığına dair Rusiyanın bir sıra ağılsız bəyanatlarını eşidirlər: "Bunun tamamilə yalan olduğunu və standart Rusiya dezinformasiya təlimatlarının bir hissəsi olduğunu vurğulayacağam. Biz bunu son illərdə çox görmüşük". Psaki, həmçinin bildirib ki, Ağ Ev Qazaxıstanda etiraz aksiyaları ilə bağlı xəbərləri izləyir:

"Birləşmiş Ştatlar Qazaxıstan hakimiyyətini təmkinli olmağa, etirazçıları isə öz tələblərini dinc yolla bildirməyə çağırır".

## İlham Əliyev Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik edib

**Prezident İlham Əliyev İsa Peyğəmbərin mübarək mövludu - Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik edib.**

Təbrikdə min illərdir Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsublarının qarşılıqlı hörmət və etimad mühitində, sülh və əmin-amanlıq şəraitində yaşadıqları bildirilir. Qeyd edilir ki, çoxəsrlik tolerantlıq ənənələrinin mövcud olduğu cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin, dini-mənəvi irsin və multikultural dəyərlərin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsi həyata keçirilən dövlət siyasətinin başlıca məqsədlərindəndir.

"Bu gün ölkəmiz haqlı olaraq dünyada konfessiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır. Sivilizasiyaların qovşağında yerləşən Azərbaycan dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəs üçün doğma vətəndir. Məmnuniyyət hissi ilə vurğulamaq istəyirəm ki, ölkəmizdə yaşayan müxtəlif xalqların və dinlərin nümayəndələri, o cümlədən pravoslav etiqadlı həmvətənlərimiz ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edərək vətəndaşlıq borcunu layiqincə yerinə yetirir, ümumi evimiz Azərbaycanın çiçəklənməsi və tərəqqisi naminə qüvvə və bacarıqlarını əsirgəmirlər", - deyə dövlətimizin başçısı vurğulayır.

Milad bayramının yeniliyin, əmin-amanlığın, insanlar arasında mərhəmət və şəfqət duyğularının rəmzi kimi hər il ölkəmizdə qeyd olunduğunu bildirən dövlətimizin başçısı təbriki bu sözlərlə bitirir: "Bu müqəddəs bayram münasibətilə bir daha hamınıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram".

## İnsanların sıx toplaşdığı yerlərdən uzaq durun!

### Səfirlik Qazaxıstandakı vətəndaşlarımıza səsləndi



**Qazaxıstanda etiraz aksiyaları zamanı Azərbaycan vətəndaşlarının xəsarət alması ilə bağlı səfirliyə heç bir müraciət daxil olmayıb.**

Bu məlumatı Azərbaycanın Qazaxıstandakı səfirliyi yayıb. Diplomatik nümayəndəliyin məlumatında qeyd olunur ki, Qazaxıstanın üç şəhərində - Almatı, Aktau, Aktobedə vəziyyət hələ də gərgindir. Paytaxt Nur-Sultanda isə etiraz və mitinqlər yoxdur, vəziyyət sabitdir. Səfirlik Qazaxıstanda yaşayan Azərbaycan vətəndaşlarına insanların sıx toplaşdığı yerlərdən uzaq durmağı, evlərində qalmalarını və bütün zəruri ehtiyat tədbirlərinə riayət etməyi tövsiyə edib.

Diplomatik nümayəndəlikdən bildirilib ki, mövcud vəziyyət Qazaxıstandakı Azərbaycan diasporunun rəhbərliyi ilə də müzakirə edilib.

# 2022-ci il "Şuşa İli" elan edildi

## Prezident İlham Əliyev sərəncam imzalayıb

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.**

**Sərəncamda qeyd edilir ki, Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.**



Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

*Sərəncama əsasən Nazirlər Kabinetinə tapşırılır ki, "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.*

# "Ağırlaşmalar demək olar ki, qeydə alınmır"

## Bakıda koronavirusla bağlı təcili yardıma müraciətlərin sayı azalıb

**"COVID-19-a gündəlik yoluxma sayı az olanda müraciətlər az olur".**



Bunu Bakı Şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının əməliyyat işləri üzrə baş həkimin müavini Nuridə Fərzəliyeva "Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının bayram günlərindəki iş fəaliyyəti haqqında" mövzusunda çıxışında deyib. O bildirib ki, son günlər müraciətlərin sayı xeyli azalıb: "Ağırlaşmalar demək olar ki, qeydə alınmır. Çox az sayda hospitalizasiya olur. "Əvvəllər COVID-19-la bağlı çağırışlarda ağırlaşma hallarına çox rast gəlirdik, bu da evdə müalicə və ya xəstəliyin gizlədilməsi nəticəsində baş verirdi. Həmin şəxslər ən son məqamda təcili tibbi yardıma müraciət edirdilər. Belə şəxsləri boğulma halında xəstəxanaya çatdırırdıq. Son zamanlar isə koronavirsla bağlı öskürək, temperatur və əzələ ağrısı ilə bağlı müraciətlərə rast gəlinir".

Həkim qeyd edib ki, bəzən kəskin respirator virus infeksiyası ilə bağlı müraciət olur: "Müraciətlərin artma səbəbi budur. Bəlkə də bu, müsbət haldır. Yəni, hər hansı insan hərarət, belə hallar müşahidə edirsə, müayinə olunmaq istəyir".



## Hərbi maşın qəzaya uğrayıb

### Hadisə zamanı iki hərbçi xəsarət alıb

**Dünən saat 17.40-da Müdafiə Nazirliyinin hərbi maşını idarəetməni itirməsi nəticəsində qəzaya uğrayıb.**

Nazirliyin Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, qəza zamanı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Abdullayev Ceyhun Hüseyn oğlu və əsgər Həsənzadə Süleyman Əli oğlu yüngül xəsarət alıb.

*Bildirilib ki, hər iki hərbi qulluqçunun həyatları üçün heç bir təhlükə yoxdur.*

# Qazaxıstan hərbi yardım istədi

## Prezident Tokayev ölkədəki vəziyyətlə bağlı KTMT-yə müraciət edib



**Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev ölkədəki vəziyyətlə bağlı KTMT-yə müraciət edib. Qazaxıstanın dövlət başçısı Təhlükəsizlik Şurasının fövqəladə iclasında bildirib ki, bu terror dəstələri beynəlxalq xarakter daşıyır, xaricdə ciddi təlim keçiblər və onların Qazaxıstana hücumu təcavüz aktı kimi qiymətləndirilə bilər və edilməlidir.**

"Bununla əlaqədar, Kollektiv Təhlükəsizlik Müqaviləsi əsasında bu gün (dünən) KTMT rəhbərlərinə müraciət etdim ki, bu terror təhlükəsinin aradan qaldırılmasında Qazaxıstana yardım etsinlər. Əslində bu, təhlükə deyil, ərazi bütövlüyünə zərbə vurmaqdır", - deyə Tokayev bildirib.

Xatırladaq ki, Almatıda və Qazaxıstanın qərbində baş verən iğtişaşlar səbəbindən bütün Qazaxıstanda fövqəladə vəziyyət tətbiq edilib.

Səkkiz nəfər polis zabiti və milli qvardiyaçının öldüyü bildirilir. Yerli KİV Almatıda talan baş verdiyini yazır.

Qazaxıstan DİN təhlükəsizlik qüvvələrinin 300-dən çox əməkdaşının yaralandığını bəyan edub.

DİN azğınlığın və talan aktlarının təxribatçılar tərəfindən təşkil edildiyini vurğulayıb, kütləni təxribatlara uymamağa çağırıb.

Müdafiə Nazirliyinin desant bölməsi Qazaxıstanda iğtişaşlar törədən silahlılarla mübarizə aparır.

Belarus Prezidenti Aleksandr Lukaşenko rusiyalı həmkarı Vladimir Putin və qazaxıstanlı həmkarı Kasım-Jomart Tokayevlə Qazaxıstandakı vəziyyətlə bağlı telefon danışığı aparıb.

"Belarus prezidenti əvvəlcə rusiyalı, sonra isə qazaxıstanlı həmkarı ilə Qazaxıstandakı vəziyyətlə bağlı məsləhətləşmələr aparıb. Bütün Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatı ölkələrinin liderləri daimi təmasdadırlar", - Belarus prezidentinin "Pul pervoqo Telegram" kanalının yaydığı məlumatda deyilir.

Bu arada BMT də Qazaxıstandakı vəziyyətdən narahatlığını ifadə edib.

"BMT Qazaxıstandakı vəziyyəti narahatlıqla izləyir, bütün tərəflərin zorakılıqdan çəkinməsi vacibdir", - deyə BMT Baş katibinin sözçüsü Stefan Dujarrik brifinqdə bildirib.

"Hazırkı hadisələrdə iştirak edənlərin təmkin nümayiş etdirmələri, zorakılıqdan çəkinmələri və bütün problemlərin həlli üçün dialoqu təşviq etmələri çox vacibdir", - Dujarrik deyib.

Qeyd edək ki, qaz qiymətlərinin artımına əhalinin kəskin etirazları səbəbindən ötən gün Qazaxıstanın bir neçə şəhər və vilayətində fövqəladə vəziyyət rejimi elan edilib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bu barədə fərman imzalayıb.

Həmçinin Qazaxıstan Prezidenti dünən ölkədə kütləvi etirazlarla əlaqədar olaraq iki gün ərzində ikinci dəfə əhaliyə müraciət edib.

Tokayev bildirib ki, Qazaxıstan Təhlükəsizlik Şurasına özü başçılıq edəcək. Bununla da Tokayev 1995-ci ildən bu vəzifəni icra edən ölkənin ilk prezidenti Nursultan Nazarbayevi işindən kənarlaşdırıb.

Tokayev vurğulayıb ki, Qazaxıstan paytaxtında, xalqın yanında qalacaq. Prezident xalqın onu dəstəkləyəcəyinə əmin olduğunu bildirib.

Tokayev etiraz aksiyaları fonunda yaxın müddətdə yeni təkliflər paketi ilə çıxış edəcəyini deyib.

# Türkiyənin hədəfləri həm də bizim hədəflərdir

## Azərbaycanın müdafiə sənayesi sahəsində xarici asılılığı azalacaq

**Türkiyənin dünyaca ünlü ASELSAN şirkətinin İdarə Heyətinin rəhbəri və baş direktoru Haluk Görgün deyib ki, Azərbaycanın müdafiə sənayesi sahəsində xarici asılılığı azaltmağı hədəfləyirlər. Baş direktorun sözlərinə görə, türk SİHA-larının təsirli şəkildə istifadəsi Qarabağ Zəfərinin qazanılmasına böyük töhfə verib.**



ASELSAN-ın Azərbaycan Silahlı Qüvvələrinə verdiyi müasir rabitə avadanlıqları və bir çox müxtəlif məhsullar 44 gün davam edən Vətən müharibəsində geniş və səmərəli istifadə olunub: "Bu müharibədə bütün dünya bizim qardaşlığımızın şahidi oldu. Türkiyə müdafiə sənayesinin gücünü gördü. Müdafiə sənayesində yerli məhsulların xarici məhsullara nisbəti 20 il əvvəl yüzdə 20 faiz təşkil edirdisə, bu gün bu nisbət əks göstəricidir. İndi Türk ordusunda yüzdə 80 faiz yerli müdafiə sənayesi məhsullarından istifadə olunur. İki qardaş ölkə arasında əməkdaşlıq hər sahədə davam edir. Müdafiə sənayesi sahəsində də birgə istehsal, inkişaf mövzuları prioritetdir".

Görgün bildirib ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyi ilə ASELSAN arasında, xüsusilə elektrooptika və gecəgörmə sistemləri ilə bağlı birgə istehsalat fəaliyyətləri həyata keçirilir: "Son illərdə bələdçi dəstlərlə bağlı bəzi birgə fəaliyyətlərimiz də var. Gələcəkdə müdafiə sənayesi sahəsində birgə müəssisələrin təşkilinin, birgə məhsulların istehsalının reallaşacağına inanıram. Onu da qeyd etmək istərdim ki, bu sahədə texnologiyanı bilən, sevən, yaradıcı, innovativ universitet məzunlarına, beyin kapitalına ehtiyac var. Buna görə gələn il biz Texnofesti Azərbaycanda təşkil edəcəyik. Biz Azərbaycanın müdafiə sənayesi sahəsində xarici asılılığını azaltmağı, texnologiya transferi layihələri vasitəsilə kritik texnologiyalara çıxışı təmin etməyi və yerli məşğulluq yaratmaqla sənayeni gücləndirməyi hədəfləyirik".

**Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov "Şərq"ə bildirib ki, Türkiyə ilə hərbi əməkdaşlıq Azərbaycan üçün müstəsna əhəmiyyətə malikdir.** Polkovnik qeyd edib ki, Vətən müharibəsi Azərbaycan Ordusunun yüksək peşəkarlığını, döyüş hazırlığını nümayiş etdirməklə yanaşı, həm də onun ixtiyarındakı texnikaların, silah-sursatın, dronların, müşahidə sistemlərinin nə qədər yüksək keyfiyyətə cavab verdiyini göstərdi: "Müharibə dönəmində Türkiyədən alınan müşahidə və zərbə dronları həqiqətən də qələbənin qazanılmasına böyük töhfə verdi. Azərbaycanlı mütəxəssislər tərəfindən peşəkarcasına idarə edilən bu dronlar düşmənin canlı qüvvəsinin, o cümlədən raket sistemlərinin, artilleriya qurğularının yerinin dəqiq müəyyən olunması və məhv edilməsində mühüm rol oynadı. Onu da qeyd edim ki, Türkiyə istehsalı olan bu dronların məhv etdiyi raketlər həm də Gəncə, Bərdə, Tərtər və s. kimi şəhərləri - mülki insanları atəşə tutur, günahsız insanların qətlinə yol açırdı. Məhz bu dronlar həmin raketlərin məhvinə imkan verdi ki, bununla da yüzlərlə, minlərlə insanın təhlükəsizliyi təmin edildi".

> "Yaxın gələcəkdə Türkiyə və Azərbaycan arasında hərbi əməkdaşlıq yeni mərhələyə qədəm qoyacaq"

**C.Xəlilov vurğulayıb ki, Vətən müharibəsi Türkiyə istehsalı olan texnikaların müasir standartlara cavab verdiyini, yeni nəsil texnikalar olduğunu sübut etdi:** "Şübhəsiz, real döyüş əməliyyatlarında bu texnikaların, hərbi sistemlərin özünü yüksək səviyyədə doğrultması qardaş Türkiyənin, onun hərbi-sənayesinin uğuru idi. Baş verənlər göstərdi ki, Türkiyə hərbi-sənayesi dünyanın ən qabaqcıl hərbi-sənayeləri ilə uğurla rəqabət aparmağa qadirdir və öz imkanlarını, nüfuz və təsir dairəsini sürətlə genişləndirməkdədir. Bu baxımdan istər ASELSAN, istərsə də Türkiyənin digər hərbi təyinatlı şirkətləri ilə əməkdaşlıq Azərbaycan üçün olduqca önəmlidir. Bu, sadəcə Azərbaycan ordusunun müasir hərbi texnikalarla təmin edilməsi baxımından deyil, həm Azərbaycanın hərbi sənayesinin daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. İnanıram ki, yaxın gələcəkdə Türkiyə və Azərbaycan arasında hərbi əməkdaşlıq mahiyyət etibarı ilə yeni mərhələyə qədəm qoyacaq, bu əməkdaşlıq yeni və müasir hərbi məhsulların istehsalında özünü göstərəcəkdir. Əməkdaşlığın bu şəkildə inkişafı həm Azərbaycanın, həm də qardaş Türkiyənin maraqlarına uyğundur. Bütövlükdə türk dünyasının gücünün artmasına, onun təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir".

**İsmayıl Qocayev**



İsmayıl Qocayev

# Qazax inqilabının bütün tərəfləri görünür

**İlqar Vəlizadə:** "Ölkədəki etirazlarda iqtisadi çətinliklər və bahalaşma mühüm rol oynayır"

**Turan Rzayev:** "Rusiyanın indiki halda Qazaxıstanda sabitliyi pozmasının bir neçə səbəbi var"

**Akif Aşırlı:** "Kütləni dövlətçiliyə zərər vermədən, idarə edəcək siyasi qüvvə meydanda yoxdur"



**Yanvarın 2-də Qazaxıstanın Manqistau vilayətində maye qazın ikiqat bahalaşması səbəbindən başlayan etirazlar daha sonra Almatı, Aktau, Aktoba və digər şəhərlərə də yayılıb. Kütləvi etiraz aksiyalarında nümayişçilərlə hüquq-mühafizə orqanları arasında toqquşmalar baş verib. Prezident Qasım-Jomart Tokayev vəziyyəti öyrənmək üçün komissiya yaradılmasına göstəriş verib.**

O, yanvarın 4-də etirazçıların əsas tələbini yerinə yetirməyə, qazın qiymətini aşağı salmağa hazır olduğunu bildirib. Dövlət başçısı insanları ehtiyatlı olmağa, daxildən və xaricdən gələn təxribatlara uymamağa çağırıb. Prezident hakimiyyətin süquta uğramayacağını vurğulayıb: "İçəridən və ya xaricdən təxribata uymayın. Dövlət binalarına basqın etmək çağırışlarına məhəl qoymayın. Bu, cinayətdir və sərt cəzalandırılacaq. Hökumət devrilməyəcək".

Hökumətin istefasından sonra Qaz Emalı Zavodunun direktoru Narkbergen Tulepov da saxlanılıb. O, qazın qiymətini əsassız olaraq bahalaşdırmaqda ittiham olunub. Lakin prezidentin çıxışı və hökumətin qiymət artımından geri çəkilməsi etirazçıların qəzəbinin qarşısını ala bilməyib. Almatıda meriya binasına girməyə cəhd edən yüzlərlə etirazçını dağıtmaq üçün gözyaşardıcı qaz və səs qumbaralarından istifadə olunub. İcra Hakimiyyətinin, şəhər prokurorluğunun binaları, habelə hakim "Nur Otan" Partiyasının Auezov rayon şöbəsinin qərargahı yandırılıb. Şəhərdəki iğtişaşlar nəticəsində 33 xüsusi təyinatlı avtomobil yandırılıb. İğtişaş zamanı 300-ə yaxın müəssisə dağıdılıb. Bəzi etirazçılar "Qocalar çıxıb getsin" və "Hökumət istefa versin" şüarları səsləndiriblər. "Telegram", "Signal" və "WhatsApp" kimi mesajlaşma proqramları bloklanıb və aksiya xəbərlərini yayan iki internet saytı bağlanıb. Etirazların genişlənməsindən Almatı və Manqistau vilayətlərində fövqəladə vəziyyət elan edilib. Yanvarın 19-dək davam edəcək fövqəladə vəziyyət komendant saatı ilə paralel hərəkət azadlığının məhdudlaşdırılması və s. məqamları da özündən ehtiva edir. Qazaxıstan Daxili İşlər Nazirliyinin məlumatına görə, etirazlar zamanı 200-dən çox adam saxlanılıb. Hökumətin qərarına əsasən, kütləvi tədbirlərin keçirilməsi qadağan edilib, insanların və nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılıb. Xatırladaq ki, nümayişlərin başladığı, neftlə zəngin Manqistau bölgəsinin Janaozen şəhərində 2011-ci ildə maaşların artırılması və iş şəraitinin yaxşılaşdırılması tələbi ilə tətil edən neftçilərin etirazına təhlükəsizlik qüvvələri atəşlə cavab vermişdi. Nəticədə 14 nəfər həlak olmuşdu. Məlumat üçün onu da deyək ki, ölkəni 30 ilə yaxın idarə edən qurucu lider Nursultan Nazarbayev 2019-cu ildə postunu tərk edib. Onun yerinə Nazarbayevin dəstəklədiyi Qasım-Jomart Tokayev seçilib. 81 yaşlı Nazarbayev prezidentlikdən getməsinə baxmayaraq, hələ də ölkə idarəçiliyində aktiv rol oynayır. Təhlükəsizlik Şurasının sədri vəzifəsini davam etdirən Nazarbayevin "Millət Lideri" kimi toxunulmazlıq statusu, imtiyazları var. Qazaxıstanın Azərbaycandakı səfirliyi iğtişaşlarda Azərbaycan vətəndaşlarının xəsarət almadığını bildirib. Səfirlik, həmçinin Qazaxıstanda yaşayan Azərbaycan vətəndaşlarına izdiham toplandığı yerlərdən uzaq durmağı, evdən çıxmamağı, lazımi təhlükəsizlik tədbirlərinə əməl etməyi də tövsiyə edib. Qazaxıstanda baş verənlərə Rusiyadan da reaksiya verilib. Kremlin sözçüsü Dmitri Peskov deyib ki, hazırda baş verənlərlə bağlı Qazaxıstana kənardan müdaxilə edilməməsi çox vacibdir. O, həmçinin Qazaxıstanın ölkədə baş verənlərlə bağlı Rusiyadan kömək istəmədiyini bildirib. Rusiya Federasiya Şurasının Beynəlxalq əlaqələr komitəsinin sədr müavini Vladimir Cabarov isə bəyan edib ki, Qazaxıstanın hakimiyyət orqanları ölkədəki vəziyyətin tənzimlənməsinin öhdəsindən təkbaşına gələcək. Lakin lazım gələrsə, Moskva bu ölkəyə dinc xarakterli istənilən yardımı göstərməyə hazırdır: "Qazaxıstanlı dostlar və qardaşlar bu vəziyyətdən uğurla çıxacaqlar. Rusiya hər zaman yanınızdadır və kömək etməyə hazırdır". Rusiya Dövlət Dumasının vitse-spikeri Boris Çernışov isə iddia edib ki, Qazaxıstandakı etirazların əsl hədəfi Rusiyadır. Onun sözlərinə görə, Qazaxıstandakı etiraz aksiyalarında London və Vaşinqton regional komitələrinin əli var: "İğtişaşlara səbəb Qazaxıstan hakimiyyətinin Kremllə əməkdaşlıq kursuna sadiqliyi olub. London və Vaşinqton regional komitələri Qazaxıstan liderlərinin birliyini, Moskva ilə əməkdaşlıq kursuna sadiqliyini bəyənmir". Deputat bildirib ki, insanlar "iqtisadi səbəblərə" görə meydana çıxarılıb, amma sonra siyasi şüarlar səsləndirməyə başlayıblar.

**Qazaxıstandakı qarışıqlıqla bağlı "Şərq"ə danışan politoloq İlqar Vəlizadə bildirib ki, bu ölkədə iqtisadi problemlərin siyasi böhrana çevrilmək riski böyükdür.** Analitik deyib ki, etirazçıların siyasi şüarlarla küçələrə çıxması sosial-iqtisadi problemlərin siyasi müstəviyə daşınması deməkdir: "Daxili və xarici müəyyən qruplar proseslərin məhz siyasi məcraya yönəlməsini istəyir. Hadisələrin bu cür inkişafı Qazaxıstan kimi böyük bir ölkəni siyasi destabilizasiyaya gətirib çıxara bilər. Bu isə arzuolunmaz prosesdir. Çünki Qazaxıstanın qarışması sadəcə bu türk respublikasında deyil, bütövlükdə Orta Asiya regionunda vəziyyətin nəzarətdən çıxması deməkdir. Eyni zamanda Xəzəryanı bölgəyə mənfi təsir göstərəcək amildir. Azərbaycan Qazaxıstanla sıx münasibətlərə və region üçün mühüm olan ortaq layihələrə sahibdir. Qazaxıstan Türk Dövlətləri Birliyinin önəmli ölkəsidir. Əlbəttə, ölkədəki etirazlarda iqtisadi çətinliklər və bahalaşma mühüm rol oynayır. Sadəcə qazın qiyməti deyil, ərzaq məhsullarında da qiymət artımları müşahidə olunur. Qazaxıstan yeyinti məhsullarının böyük hissəsini xaricdən tədarük etdiyi üçün ötən ilin avqust-sentyabr aylarından bahalaşma açıq-aşkar hiss olunmaqdadır. Taxıl daxili tələbatı ödəsə də, digər məhsullara görə xaricdən asılı durumdadır. Məsələ ondadır ki, hazırda qlobal enerji bazarında vəziyyət qeyri-stabildir və qiymətlər yüksəkdir. Bunu fürsət bilən Qazax ixracatçıları qazı Avropa bazarlarına çıxarmağa üstünlük veriblər. Daxili bazarın tələbatı nəzərə alınmadığı üçün ölkədə qaz enerjisi ilə bağlı ciddi çatışmazlıq yaranıb. Son nəticədə qiymətlərin artırılmasına qərar verilib ki, bu da etirazların yaranmasına səbəb olub".

Ekspert vurğulayıb ki, Prezident Tokayev vacib addım ataraq, hökuməti istefaya göndərib, çünki etirazların tələblərindən biri hökumətin istefası idi: "Etirazçılar Nazarbayevin idarəçilikdən birdəfəlik əl çəkməsini də istəyirlər. Nazarbayev Qazaxıstanın siyasi sistemini tənzimləyən əsas fiqurdur. Onun getməsi siyasi sistemin çökməsi ilə yanaşı, bir sıra mənfi fəsadlarla nəticələnə bilər. Həbs olunmaqdan qorxan bəzi işbazlar artıq ölkəni tərk ediblər. Ümid edirik, hadisələrin ciddiliyinin fərqində olan hökumət lazımi addımlar atacaq və vəziyyət stabilləşəcək. Qazaxıstan Azərbaycanın vacib tərəfdaşıdır, 44 günlük müharibədə bizi dəstəkləyən türk ölkəsidir. İstəməzdik ki, bu ölkədə daxili siyasi vəziyyət qarışsın".

**Siyasi şərhçi Turan Rzayev də "Şərq"ə açıqlamasında bildirib ki, Qazaxıstanda baş verən mövcud etirazlar iqtisadi və sosial amillə bağlı olmaqla yanaşı, həm də Kremldə hazırlanan, anarxiyaya hesablanan bir senaridir.** Analitik xatırladıb ki, son günlər rus deputatların bir çoxu rəsmi televiziya kanallarında Qazaxıstanın tarix boyu mövcud olmadığını, hazırkı qazax torpaqlarının vaxtilə Kreml tərəfindən onlara verildiyini qeyd edirlər: "Rusiyanın indiki halda Qazaxıstanda sabitliyi pozmasının bir neçə səbəbi var. Birincisi, Qazaxıstan son illərdə Kremlin istəyi xaricində siyasət yeritməyə başlayıb. Ölkənin latın qrafikalı əlifbaya keçməsi, keçmiş SSRİ-dən qalan şəhər adlarının milli adlarla əvəzlənməsi, qazax dilinin ön plana keçərək rus dilini sıxışdırması və s. qərarlar Kremlin diqqətindən yayınmayıb. Aydın məsələdir ki, rəsmi Nursultan Kremlin başının Ukraynanın şərqində və Qafqazda qarışmasından istifadə edərək təmkinlə ölkədəki Rusiya təsirini azaltmağa çalışırdı. Hesab edirəm ki, Kreml Qazaxıstandakı təsirinin azalmasından narahatdır və mövcud etirazlar fonunda rəsmi Nursultana açıq mesaj verir. Digər yandan Qazaxıstan sahəsinə görə, hazırda dünyanın 9-cu ən böyük ölkəsidir. Dünyanın ən böyük neft və qaz ixrac edən ölkəsidir. Bununla belə bu ölkənin hazırda ən böyük problemi əhali sayının az olmasıdır. Cəmi 18 milyon olan əhalinin bir qismini də ruslar təşkil edir. Müstəqilliyin ilk illərində ölkədəki əhalinin 37 faizini rus əsilli insanlar təşkil edirdi. Bu gün bu nisbət dəyişsə də ölkədə bu qədər rus əsilli vətəndaşın olması Qazaxıstana Kremlin təsir etməsini və gələcəkdə Ukrayna senarisinin baş vermə ehtimalını yüksəldir".

T.Rzayev vurğulayıb ki, Qazaxıstan hazırda Çinin "bir kəmər, bir yol" layihəsi çərçivəsində kilid ölkələrdən sayılır: "Çindən gələn ticarət yolu Qazaxıstan üzərindən Azərbaycana, Zəngəzur dəhlizindən Ermənistana, Türkiyə üzərindən isə Avropaya qədər uzanacaq. Rusiya indiki halda Qazaxıstanın özündən asılı olmasını və Çinin "bir kəmər, bir yol" layihəsində kilid ölkə roluna malik olmasını istəmir. Rəsmi Moskva Qazaxıstan torpaqlarından keçəcək xəttin öz torpaqlarından, daha dəqiq desək, Orenburq, Çelyabinsk, Omsk kimi şəhərlərdən keçməsini istəyir. Hesab edirəm, Rusiya ilə Qazaxıstan indiki halda məhz bunun üçün anlaşmazlıq yaşayır və Kreml təsir rıçaqlarını işə salır".

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı da Qazaxıstan olaylarına münasibət bildirib.**

- Qazaxıstan indi dünyanın diqqət mərkəzindədir, nə baş verir, nə olacaq, hadisələrin axarı nələri doğura bilər deyə beyin mərkəzləri baş sındırır. Qazaxıstan soykök, etnik baxımdan Azərbaycana doğma bir ölkədir. "Kremlin adamı"ndan Türk Dünyasının ağsaqqalına qədər yol gəlib keçən Nazarbayev erası gözlərimiz önündə sona çatır. Baş verən hadisələrin xronikasına baxsaq, əhalinin sosial vəziyyətinin ağırlığından istefa şüarlarınadək tələblərin sürətlə dəyişdiyini görərik. Lideri bəlli olmayan etirazçıların daha hansı tələblərlə çıxış edəcəyi, nələrin ortaya çıxacağı da aydın deyil. Yaxud vəziyyəti nəzarətdə saxlamağı bacarmayan, zəifləyən hakimiyyət kiminlə, hansı siyasi qüvvələrlə dialoq aparacağı da sual altındadır. Çünki kütləni dövlətçiliyə zərər vermədən, idarə edəcək siyasi qüvvə meydanda yoxdur. Demək olar ki, hakimiyyət idarəolunmaz kütlə ilə üz-üzə qalıb".

**A.Aşırlı vurğulayıb ki, Qazaxıstanda inqilab alovunun atəşə çevrilməsində uzun müddət hakimiyyətdə olan Nazarbayevin dəyişməz komandasının yeritdiyi yanlış sosial-iqtisadi siyasət dayanır:**

"Etirazların yalnız qazın qiymətinin 2 qat artırılmasından doğması da doğru yanaşma deyil. Qazaxıstanın son illər Turan yolunda atdığı addımlar, Nazarbayevin təkamüllə millət və dövlət inşası üçün çalışmalarının bəlli mərhələyə çatması, Rusiyanın maraqları çərçivəsindən çıxması anlamına gəlir. Sirr deyil ki, Türk Dünyası Akademiyasının, Əhməd Yasəvi Universitetinin qurulması, yerli idarəçiliyə Türkiyədə ali təhsil alanların irəli çəkilməsi rus kəşfiyyatının, hakimiyyətinin diqqətindən yayına bilməzdi. Qazaxların demoqrafiq üstünlüyü də burada nəzərə alınmalı faktorlardan biridir. Rus dilinin yerini qazax türkcəsinə buraxması, 2025-ci ildə latın qrafikasına keçidlə bağlı qərar və görülən işlər də burada əhəmiyyətli rol oynamaqdadır".

**Baş redaktor ikinci mühüm bir faktora toxunub:** "Dünya ağalığına iddialı Çinin müstəqil Qazaxıstana qarşı gizlin siyasəti diqqətdən qaçmamalıdır. Qazaxıstanla sərhəddə yerləşən Çin uyğur türklərinin sığınacaq yeri ola biləcək bir Türk Cümhuriyyətinin sabitliyini, iqtisadi gücünün artmasını istəmir. Ən maraqlısı, Türkiyənin Qazaxıstanda baş verənlərə münasibəti, kənar qüvvələrin oyunlarının qarşısını almaq üçün görəcəyi tədbirlər, planlardır. İndi verilən xəbərə görə, Ərdoğanla Dövlət Baxçalı görüşüb, söhbətin dövlətçiliyi sual altında olan Qazaxıstandan getdiyini zənn etmək olar. Türkiyə nə edəcək və nə etməlidir? Bax, maraqlı sual budur".



# Paşinyan ermənilərin sonuncu ümidini qırdı

Ermənistanla yekun sülh müqaviləsinin imzalanmasına indi daha münbit zəmin yetişib

**Ermənistanın "3+3" formatında keçirilən görüşlərə qatılması postmünaqişə dövrünü qəbul etməsi və Azərbaycanla sülh sazişini imzalaması imkanlarını da artırır.** Son günlər Baş nazir Nikol Paşinyanın Qarabağ haqqında söylədikləri, sərhədlərin müəyyənləşməsinin və kommunikasiyaların bərpasının İrəvan üçün prioritet olduğunu söyləməsi də göstərir ki, Ermənistan mövcud reallığı dərk etməyə başlayıb. Düzdür, Paşinyan ara-sıra daxili rəyə hesablanmış mesajlar versə də, görünən odur ki, İrəvanın hədəfi iqtisadi gəlirlər əldə etmək, xüsusilə Türkiyə ilə sərhədlərin açılmasına nail olmaqdır. Bunun da yolu sülh sazişindən keçir. Son günlər Paşinyanla Qarabağdakı separatçılar arasında gərginliyin yaranması da göstərir ki, İrəvan rəsmi Bakı və Ankaranın tələblərini qəbul etmək ərəfəsindədir. Ermənistan bir müddət vəziyyətin nə yerdə olduğunu, başqa alternativlərin mövcudluğunu öyrənmək üçün həmlələr etdi. Amma anladı ki, seçim qalmayıb, münasibətləri bərpa etməkdən başqa nicat yolu yoxdur.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında qeyd edib ki, separatizmin qalıqlarını sıradan çıxarmaq, Azərbaycan ilə Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasına və digər məsələlərin həllinə nail olmaq üçün indi daha münbit zəmin yetişir.** Partiya sədrinin sözlərinə görə, əgər Rusiya sülhməramlıları separatçılara himayəçilik etməsə və 10 noyabr Bəyanatının şərtlərinin yerinə yetirilməsi prosesində Azərbaycanla eyni mövqedən çıxış etsə, Qarabağda erməni separatizminə tezliklə son qoymaq mümkün olacaq: "Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqlar bütün tərəfləri məsələlərin tənzimlənməsinə rasional yanaşmağı diktə edir. Nikol Paşinyanın onlayn formatda keçirdiyi mətbuat konfransı zamanı səsləndirdiyi fikirlər və Ermənistan ictimaiyyətinə verdiyi birbaşa mesajlar onun yeni reallıqlarla barışdığını və düzgün mövqe tutmağa başladığını göstərir. Baş nazirin beynəlxalq hüquq normalarına əsasən, Qarabağın Azərbaycana aid olduğunu təsdiqləyən arqumentlər səsləndirməsi, Qarabağın Azərbaycanın tərkibindən kənarda mövcudluğu üçün hər hansı nəzəri və praktiki şansın qalmadığını bildirməsi proseslərə yeni yanaşmadan xəbər verir. Bu o deməkdir ki, Paşinyan ermənilərin Qarabağın statusu ilə bağlı sonuncu ümidlərini də qırdı və Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olduğunu nümayiş etdirdi".

*Ə.Hüseynov bəyan edib ki, bütün bunlar Paşinyanın yeni reallıqları qəbul etdiyini göstərir və həm Ermənistanın özündə, həm də Xankəndidə tamamilə yeni situasiya yaradır:* "Təsadüfi deyil ki, Ermənistan Baş nazirinin son açıqlamalarından sonra Xankəndidəki separatçıların "lider"i Araik Arutyunyan faktiki olaraq Nikol Paşinyana qarşı "müharibə" elan edib. Hazırda Qarabağ bölgəmizin dağlıq hissəsində, Rusiya sülhməramlılarının müvəqqəti nəzarət zonasında demək olar ki, hamı Paşinyanın əleyhinə köklənib. Bu da Arutyunyanın son günlərdə intensiv şəkildə apardığı anti-Paşinyan təbliğatının nəticəsidir. Paşinyan-Arutyunyan qarşıdurmasının pik həddə çatması müəyyən mənada Azərbaycanın maraqlarına uyğundur. Rəsmi İrəvanın dəstəyindən məhrum vəziyyətə düşmüş Qarabağ separatçılarını daha yumşaq üsullarla neytrallaşdırmaq və Xankəndidə Azərbaycanın suverenliyini bərpa etmək üçün əlverişli imkanlar yaranır".

**İsmayıl Qocayev**

# Gürcülər Türkiyə görüşünə getməyəcək

Tbilisi "altılıq" platformasına qatılmamaqda israrlıdır

**Gürcüstan "3+3" platformasının Türkiyədə keçiriləcək növbəti görüşündə iştirak etməyəcək. Bunu Gürcüstanın Türkiyədəki səfiri Georgi Cancqava Türkiyə mediasına açıqlamasında deyib.**

Səfir qeyd edib ki, Gürcüstan Türkiyə və Azərbaycanı strateji tərəfdaşları kimi, Ermənistanı isə tarixi qonşusu kimi görür. Bununla belə səfir, "altılıq" platforması iştirakçılarından olan Rusiyanın Gürcüstan ərazilərinin 20 faizini işğal edən bir ölkə olduğunu vurğulayıb. Xatırladaq ki, "altılıq" platformasının ilk iclası dekabrın 10-da Moskvada keçirilib. Həmin toplantıda region ölkələri rəsmi Tbilisiyə müraciət edərək, qonşu ölkəni "altılıq" əməkdaşlıq platformasına dəvət ediblər. Hətta Rusiya Xarici İşlər Nazirliyi də Gürcüstanla iqtisadi əməkdaşlığa hazır olduğunu diqqətə çatdırıb.

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında deyib ki, rəsmi Tbilisinin Rusiya ilə bağlı mövqeyinin dəyişməsi üçün Moskva işğal etdiyi əraziləri Gürcüstana geri qaytarmalıdır.** Lakin ekspert Kremlin bu addımı atmayacağına əmin olduğunu söyləyib: "Gürcüstan torpaqlarının 20 faizini işğal edən Rusiyanın rəsmi Tbilisiyə "əməkdaşlıq" təklifi absurddur. Əslində Gürcüstanla əməkdaşlıq Rusiya üçün əhəmiyyət kəsb etmir.



"Məsələnin digər tərəfi odur ki, ABŞ Gürcüstanın "altılıq" platformasında iştirakını istəmir"

Kreml o qədər aqressivdir ki, hətta müəyyən əməkdaşlıq üçün şərait yaransa belə, ilk boşluqda Gürcüstana qarşı daha irəli addım atacaq. Əfsuslar olsun ki, Moskva ilə imzalanan saziş, anlaşma heç nə ifadə etmir. Beynəlxalq münasibətlər sistemində bunu dəfələrlə müşahidə etmişik. Geosiyasi maraqları tələb etdiyi təqdirdə Moskva öz imzasından tərəddüd etmədən vaz keçmək "qabiliyyətinə" malikdir".

*N.Miri Rusiyanın 1994-cü ildə Ukraynanın təhlükəsizliyi ilə bağlı verdiyi zəmanət sənədini xatırladıb:* "Nüvə silahlarının Ukraynadan alınması əvəzində Rusiya Kiyevə təhlükəsizlik zəmanəti vermişdi. Ancaq əvəzində Sevastopol və Krım kimi strateji önəmə malik Qara dəniz bölgələri işğal edildi. Bununla kifayətlənməyən Moskva Donetsk və Luqansk bölgələrinin bir hissəsini də zəbt etdi. Ona görə də rəsmi Tbilisi haqlı olaraq Rusiya ilə əməkdaşlıq etmir və Kremlin səmimi olduğuna inanmır. Həm də anlayır ki, Rusiya ilə əməkdaşlıq hökumətin əleyhinə işləyər və əhalinin etirazına səbəb olar. Məsələnin digər tərəfi odur ki, ABŞ Gürcüstanın "altılıq" platformasında iştirakını istəmir. Mexanizmin tam işlək vəziyyətə gəlməməsi üçün Qərb dairələri Tbilisi hökumətinə təsir göstərir".

**İsmayıl Qocayev**



# Yazda Ermənistanla sərhədlərin müəyyənləşməsinə başlanacaq

## Azərbaycan Qarabağdakı ermənilərlə bağlı dövlət proqramını bu il açıqlaya bilər

İsmayıl Qocayev

**2022-ci ildə Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiya və demarkasiya üzrə ikitərəfli komissiyanın yaradılması ehtimalı böyükdür. Moskva ABŞ-Rusiya qarşıdurması fonunda siyasi mübarizənin əsas cəbhələrindən olan Cənubi Qafqazda özünün vasitəçiliyi ilə əldə olunan razılaşmanın praktiki mərhələyə keçməsini istəyir.**

Əlbəttə, bu prosesin tamamlanması zaman ala bilər. Lakin Kreml üçün əsas məsələ delimitasiya müqaviləsinin imzalanması, ikitərəfli komissiyanın yaradılması və fəaliyyətə başlamasıdır. Bu, sərhəd üzərindən üçüncü tərəflərin bölgəyə müdaxiləsinin qarşısını alacaq. Eyni zamanda Ankara ilə münasibətləri normallaşdırmaq istəyən İrəvan Bakının gündəliyində cari məsələ olan sərhəd razılaşmasının icrasına razı görünür. Nikol Paşinyanın ötən ilin sonunda sərhəd razılaşmasının Ermənistanın əleyhinə olmadığına dair açıqlaması da bu fikri gücləndirir.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Bakı, Ankara və Moskvanın bölgədə fikir ayrılığının olmadığı yeganə razılaşma sərhədlə bağlıdır.** Analitikə görə, delimitasiya müqaviləsinin növbəti aylarda imzalanması, demarkasiya prosesinin də hava şəraitinin əlverişli olduğu dövrdə - yaz aylarında başlana biləcəyi gözləniləndir: "Kommunikasiyanın açılması üzrə praktiki addımların atılması da mümkündür. Brüsseldə "qarşılıqlı gömrük və sərhəd nəzarəti" məntiqi ilə əldə olunan razılaşma mövcud anlaşmalara yenidən baxmağı zəruri edir. Moskva da hazırda kommunikasiya üzrə vahid sənədlər paketinin yenidən işləndiyini açıqladı. Bu, kommunikasiyanın açılması prosesinin bir qədər zaman alacağını deməyə əsas verir. Mümkündür ki, nəqliyyat infrastrukturunun inşasını həyata keçirmək üçün kommunikasiyanın "dəhliz", yaxud "yol" məntiqi üzrə açılması ilə bağlı son razılaşma sonraya saxlanılsın. Sərhəd və kommunikasiya cari ilin ən aktual məsələsi olacaq. Dövlət başçısı İlham Əliyev də 2021-ci ilin yekun çıxışında həm Bakının Soçi və Brüssel razılaşmalarının 2022-ci ildə reallaşmasını gözlədiyinin mesajını verdi".

Ekspert "3+3" formatında əməkdaşlığın dərinləşə biləcəyini də istisna etməyib: "Türkiyə və Rusiya Qərb-Rusiya qarşıdurması fonunda bölgədə əməkdaşlığın dərinləşməsinə çalışacaq. ABŞ-la nüvə danışıqları üzrə dil tapa bilməyən İran bu formatda aktivliyini artıracaq. Bakı "3+3" formatını "problemlərin həlli platforması" kimi Minsk qrupu formatına qarşı istifadə edilməsini aktuallaşdıra bilər".

**A.Nərimanlı vurğulayıb ki, cari ildə Bakı və Ankara Laçın dəhlizinə nəzarət məsələsi istiqamətində işləyəcək:** "Azərbaycan Qarabağdakı ermənilərlə bağlı dövlət proqramını bu il açıqlaya bilər. Sərhədin müəyyən edilməsi erməni



qoşunların Azərbaycan sərhədləri daxilindən çıxarılması zərurətini aktuallaşdırır. Moskva da Soçi razılaşması ilə yanaşı, müharibədən sonrakı danışıqların baza prinsipini təşkil edən 10 noyabr bəyanatının heç bir irəliləyiş olmayan bəndinin icrasına vasitəçiliyinin effektivliyi baxımından razı ola bilər. Paşinyanın "Qarabağın statusu" ilə bağlı son açıqlaması, separatçılarla İrəvan arasındakı çatlar da Ermənistanın "oyundan çıxacağı" perspektivini gücləndirir. Bu perspektivlər fonunda Bakı erməni əhali üzərində təbliğatı artırar. Nəzərə alaq ki, birgəyaşayışla bağlı dövlət proqramının açıqlanması bu addımlardan biridir".

# "Nüvə beşliyi"nin bəyanatında təzadlı məntiq var

## Dünya gücləri bu sahədə də monopoliya yaratmaq niyyətlərini ifadə edir və digər nüvə dövlətlərinə "kənara çəkilin" ismarıcını verir




"Əgər nüvə müharibəsinə start verilsə, bu savaşda yeni cəbhə kosmosda açıla bilər"

**"Dünyada nüvə silahlarının istehsalı sürətləndiyi bir dövrdə "nüvə beşliyi" (Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Çin) tətbiqi zamanı bəşəriyyətə böyük fəlakətlər gətirə biləcək silahların yayılmasının qarşısının alınması üçün birgə bəyanatla çıxış ediblər".**

Bu barədə "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, bəyanatı qəribə və təzadlı məntiqin dibi hesab etmək olar. Çünki bu dövlətlər özləri nüvə arsenalını hələ də əhəmiyyətli dərəcədə zəiflətməyiblər: "Bəyanatın məğzində dayanan mesaj budur ki, nüvə silahı əldə etmək istəyən digər dövlətlər bu istək və məqsədlərindən çəkinsinlər. Təhdidqarışıq çəkindiricilik çağırışının kökü isə sağlam ideyalardan çox hökmranlıq konsepsiyasına əsaslanır. Dünyada hazırda 9 nüvə dövləti var - ABŞ, Rusiya, Fransa, Britaniya, Çin, Hindistan, Pakistan, İsrail və Şimali Koreya. Görünür, "beşlik" bu sahədə də monopoliya yaratmaq niyyətlərini ifadə edir və digər nüvə dövlətlərinə "kənara çəkilin" ismarıcını verir. Bəyanatda sağlam ideyanın işartılarını onda görmək olur ki, beş ölkə nüvə müharibəsində qalib olmayacağını bəyan ediblər. Bəyanata zahiri pozitivlik verən də elə bu məqamdır, lakin nüvə dövlətlərinin arsenallarının müqayisəli təhlili risk faktorunun artdığını göstərir. Düzdür, nüvə silahları bir tərəfin digər rəqib tərəf üzərində hegemonluğunu diktə etmək üçündür, danışıqlarda güclü əl çevrilməyinin təminatçısıdır. Lakin nüvə silahlarına malik ölkələr özləri aydın dərk edirlər ki, nüvə müharibəsi bəşəri faciələrin açarıdır".

**A.Kərimov qeyd edib ki, nüvə müharibəsinə dair senarilər də diqqət çəkir:** "Nəzəri olaraq göstərilir ki, nüvə silahı ilə bir məkanın məhvi özünün yedəyində ayrıca məhv edilmə təhdidini gətirir. Yəni, hücumla müdafiə paralel olduğundan, bir nüvə dövləti digər nüvə dövlətinin ərazisinə nüvə silahı ilə zərbə endirsə, dərhal bunun adekvat qarşılığını alacaq. Hücum planlarına qarşı preventiv tədbirlər kompleksinin özü ikinci ölüm dalğası gətirir. Bundan əlavə, nüvə arsenalına malik ölkələr digərlərinin preventiv tədbirlərinin nə olacağını da dəqiq bilmir, bu isə onları nüvə zərbələrindən çəkindirir. Digər tərəfdən, əgər nüvə müharibəsinə start verilsə, bu savaşda yeni cəbhə kosmosda açıla bilər. Müharibə tərəfi olan dövlətlərdən biri düşməninin kommunikasiya peyklərini sıradan çıxarmağa cəhdlər edəcək. Bu isə, ordunun idarə edilməsi üçün böyük problemdir. "Kosmos müharibələri"ndə bir az konspirativ nəzəriyyələr elementləri olsa da, hazırda güclərin kosmosda nəzarət uğrunda kəskin rəqabətə girdiyini müşahidə edirik".

**İsmayıl**

# Ordunu gözdən salmaq istəyən qüvvələrə aman vermək olmaz



"Rəsmilər şəhid anasını dinləməli və narahatlığına aydınlıq gətirilməlidir"

**Milli Qəhrəman, şəhid generalımız Polad Həşimovun anası Səmayə Həşimovanın səsləndirdiyi ittihamlar sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. İddialar düşmən mətbuatının da manşetini bəzəyib. Ermənilər Azərbaycan Ordusunu gözdən salmaq üçün əsassız söz-söhbətdən ölkəmiz əleyhinə gen-bol istifadə ediblər.**

Xatırladaq ki, şəhid Polad Həşimovun anası oğlunun ölümü ilə bağlı Silahlı Qüvvələrin rəhbər şəxslərini suçlayıb, övladının vəzifəyə görə, qəsdən "öldürüldüyünü" iddia edib. Ekspertlərə görə, müzəffər Ordumuza və təcrübəli generallarımıza qarşı bu cür ittihamların səsləndirilməsi heç də təsadüfi deyil. General Polad Həşimovu şəhadət zirvəsindən adi qətl səviyyəsinə endirmək istəyənlərin məramı qalib Orduya qarşı sosial şəbəkələrdə çoxdan başlanan kampaniyanın daha da körüklənməsidir. Polad Həşimovun adını və onun ailə üzvlərini öz çirkin məqsədlərinə qurban verənlərin qayəsi Azərbaycan Ordusunu gözdən salmaqdır. Əlbəttə, şəhid anaları başımızın tacı, haqsız olsalar belə, gözümüzün nurudurlar. Amma onları məkrli məqsədlər üçün danışdıranlar, müqəddəs duyğulardan sui-istifadə edənlər isə vətən xainləridir. Onların təxribat əməlləri milli təhlükəsizliyimizə təhdid, şəhidlərimizin ruhuna hörmətsizlikdir. Onu da anlamaq lazımdır ki, Polad kimi oğullar sadəcə bir ailənin övladı deyil, bütöv millətin, dövlətin oğullarıdır. Üstəlik, Polad Həşimov İkinci Qarabağ müharibəsinin müqəddəs simvollarından biridir. Söhbət Ordumuzdan, şəhidlərimizdən, onların ailə üzvlərindən gedirsə, maksimum həssas davranmalıyıq. Düşmən Vətən müharibəsində məğlub olandan sonra müxtəlif vasitələrlə Azərbaycanın qələbəsinə kölgə salmağa çalışır. İctimaiyyət nümayəndələri hesab edirlər ki, bu cür aksiyalar planlı şəkildə düşünülmüş və istiqamətləndirilmiş layihələrdir. Hədəf Azərbaycana Şanlı Zəfər qazandıran müzəffər Ordumuz və yüksək rütbəli hərbçilərdir. O səbəbdən çox diqqətli olmalı və bu cür məsələlərə məhz dövlətçilik mövqeyindən yanaşmalıyıq.

**Günlərdir müzakirə olunan mövzunu "Şərq"ə dəyərləndirən hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov deyib ki, şəhid anasına düzgün məlumat verilmədiyi üçün müəyyən inciklik və narazılığın yaranması mümkündür.** Amma bu, əsas verməz ki, cəmiyyətimizdə böyük hörmət və etiramla anılan şəhid generalımızın adı üzərindən bu cür ittihamlar səsləndirilsin: "Polad Həşimovun anası Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyevi ittiham edir. Mən o adamı şəxsən tanıyıram. General-polkovnik Kərim Vəliyev orduya daxil olandan bugünədək bir dəfə olsun hansısa qalmaqalda adı hallanmayıb. Korpus komandanı, müdafiə nazirinin müavini kimi yüksək vəzifələri uğurla icra edib, daim döyüş bölgələrində, döyüş vəziyyətində olub. Səməyə ananın hansısa məsələdə narahatlığı var idisə, istənilən adamla rahat şəkildə görüşə bilərdi. Şəhid anasını ən yüksək səviyyədə qəbul edərdilər və dinləyərdilər. Amma məsələnin bu şəkildə ictimailəşdirilməsi, əsası olmayan ittihamların səsləndirilməsi qətiyyən yolverilməzdir. Belə qalmaqal bizim əleyhimizədir. Ermənilər teleqram kanallarında bu hadisəni tirajlayaraq, müzəffər Ordumuzu aşağılayırlar. Düşmən öz maraqları üçün bundan maksimum istifadə edir. Bunun ictimailəşdirilməsi bizi istəməyən, ordunu gözdən salmaq istəyən qüvvələrin əlinə fürsət verdi. Baş verənlər Ordumuz üçün xoşagəlməz haldır. Səməyə ana bu şəkildə hərəkət etməməliydi. Artıq ox yaydan çıxıb. Bundan sonra rəsmilər şəhid anasını dinləməli və narahatlığına aydınlıq gətirməlidirlər ki, o da rahatlıq tapsın".

**İsmayıl Qocayev**

Məlahət Rzayeva

**Uşaqlar arasında yayılan xəstəlik artıq sosial şəbəkələrin əsas müzakirə mövzusudur. Sosial şəbəkə istifadəçiləri həkimlərdən əlini üzüb, bir-birinə məsləhət verir. Biri yazır ki, "3 gündür uşaq qızdırma ilə savaşır. Xəstəxanalarda isə yer yoxdur, sanki uşaqlara belə gəlib ancaq".**

Ona cavab olaraq da min cür tövsiyələr qeyd edilir. Biri yazır, "nəbadə, xəstəxanaya aparasınız, evdə müalicə edin. Mən evdə "həll etdim. Ev yaxşıdı, özünüz nəzarət edə bilirsiniz". Biri yazır, "antibiotiksiz olmayacaq, təcili antibiotiklərə "keçin", biri digər özəl



# Uşaqlar arasında yayılmış xəstəlik bildiyimiz, tanıdığımız qripdir

## "Bəzən valideynlər uşaq öskürən kimi dərman içirtməyə başlayır, bu yanlışdır"

klinikanı, tanıdığı pediatrı məsləhət görür. Başqası da təsəlli verir ki, "3 günlük xəstəlikdir. 3 gün çəkir. Sistem qoşdurun". Beləcə tibbi-profilaktik məsləhət yerinə çevrilib sosial şəbəkələr. Hamını düşündürən də bir sualdır: axı bu, nə xəstəlikdir belə?!

**Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında hazırda azyaşlılar arasında müşahidə edilən xəstəliyin mövsümi qrip olduğunu dedi:**

- Bizim camaat da qəribədi. Nə vaxt biz həkimlər deyirdik, uşaqlar arasında "COVİD" yayılıb, analar inkar edirdi ki, yox, COVİD deyil, qripdi. İndi deyirik, qripdi, deyirlər, yox, ya "COVİD"di, ya da başqa, adı açıqlanmayan xəstəlikdi, niyə adını demirlər?!. Tutalım, mən dedim, "filan" virusdu? Nə dəyişəcək? Valideynlər xəstə uşaqları əvvəlki qayda ilə yenə bağçaya, məktəbə göndərəcək, xəstə uşaq da orda başqa uşaqları yoluxduracaq. Xəstəlik ona görə azalmır, çünki yoluxdurma davam edir. Keçək o biri məsələyə. Hazırda uşaqlar arasında yayılmış xəstəlik bildiyimiz, tanıdığımız qripdir. Qrip respirator virus infeksiyalarının ən ağır formasıdır. Respirator viruslar çoxdur. Biz adi burun tutulmasına, boğaz ağrısına da qrip deməyə öyrəşmişik. Amma hər burun tutulması, boğaz ağrısı qrip olmur. Soyuqdəymə də ola bilər. Bəli, uşaqlar arasında qripə yoluxma çoxalıb. Həkimə müraciətlərin artması da bunu təsdiqləyir. Deyirlər, xəstəxanaya aparmayın uşağı?! Bəs hara aparsın? Teatra?!. Azyaşlılar, xüsusilə də südəmər körpələr qızdırmanın ilk günündən həkim müayinəsindən keçməlidir. Çünki ağırlaşma baş verə bilər. Qızdırma əleyhinə mütləq təcili müalicə lazımdır. Bağça yaşlı, məktəb yaşlı uşaqlarda da qızdırma 3 gündən artıq çəkirsə, yenə də həkim müayinəsi lazımdır. Antibiotikləri həkim təyin etməlidir. Bəzən zəng edirlər, "doktor, filan antibiotikləri verміşəm, düzəlmir". Düzəlməyəcək də. Antibiotik orqanizmi zəiflədir, orqanizmin xəstəliyə müqavimətini azaldır. Antibiotiklər yalnız analizlərin nəticəsinə uyğun olaraq təyin edilməlidir. Əgər analiz nəticəsində bakteriyaların olduğu müəyyən edilirsə, o zaman antibiotik təyin edilir. Virus xəstəliklərində antibiotiklərdən istifadə məsləhət deyil. Həkim təyinatı olmadan antibiotikdən istifadə edilməməlidir.

**V.Qarayev qeyd etdi ki, bəzən valideynlər uşaq öskürən kimi dərman içirtməyə başlayır:**

> "Öskürək bronxların müdafiə reaksiyasıdır, öskürəklə bronxlar yad cisimləri kənara çıxarır. Əgər öskürək uşağın tənəffüsünə mane olmursa, nəfəs darlığı yaratmırsa, dərman vermək lazım deyil"

- Bu, yanlışdır. Öskürək bronxların müdafiə reaksiyasıdır, öskürəklə bronxlar yad cisimləri kənara çıxarır. Əgər öskürək uşağın tənəffüsünə mane olmursa, nəfəs darlığı yaratmırsa, dərman vermək lazım deyil. Öz-özünə keçib gedəcək. Amma bəlğəm varsa, bəlğəmgətirici siroplardan istifadə etmək olar, çünki körpə uşaqlar bəlğəmi kənara çıxara bilmir. Başa düşürəm, xəstəxanalarla bağlı qorxu var - uşaq yoluxar, həkim nəzarəti zəifdir, maddi sıxıntı da var və sairə. Bunları anlayıram. Lakin ağırlaşmış virus infeksiyaları xəstəxanada müalicə olunmalıdır. Tibb personalının nəzarəti altında. Virus infeksiyalarından müalicə olunan uşaqların olduğu palatadan, şöbədən niyə qorxurlar ki? Eyni virusdursa, bu uşaq da yoluxub, o uşaq da. Orda daha yenidən yoluxma olmayacaq. Amma həkim nəzarəti altında, stasionar müalicə ilə uşaq daha tez sağalacaq və güvəndə olacaq.

REPORTAJ

# Şuşanın çörək qoxusu, çörəyin Şuşa qoxusu...

## Bu şəhər Allaha bir addım daha yaxındır

### Şuşaya gedirəm, qızım!

**Qarabağın işğalı, bu təcavüzün 30 ilə yaxın davam etməsi hamımızda ağır travmalar, sarsıdıcı izlər buraxıb. Doğrudur, Qarabağ biz uşaq olanda düşmən tapdağı altına düşdü. Həmin dönəmdə bunu şüurlu şəkildə dərk edə bilmirdik. Uşaq idik, amma böyüdük. Anlatdılar. Anladıq.**

Qarabağsızlıqla bağlı ən böyük travmanı elə uşaqkən Bakı metrosunda aldım.

Yəqin, xatırlayırsınız, metroda başışallı bir kişi dolaşırdı. Yaşıl yaylığının üstündəki ağ kağızın üzərinə "Qarabağ" yazılmış lent də bağlayırdı. Ta böyüyüb media sahəsinə qədəm qoyanda bildim adını: şair Bəşir Kəsərli idi. Metro vaqonuna girən kimi ilk sözü belə olurdu:

"Qeyrətli xalqın qeyrətsiz oğluyam! Gözəl şeirlər, qəzəllər müəllifiyəm! Ehtiyacdan öz kitablarımı satıram".

Bu mənzərə ovqatımı elə təlx etdi ki, içimə böyük bir qaranlıq, gözlərimə zülmət çökdü. Sanki dərin fiziki, mənəvi kollaps yaşadım. Və bu hissi hər metroya düşdükdə, kimsə Bakıya ilk gəlişindən danışdıqda, yenidən yaşadım və ağrını köksümdə yaşatdım.

***

Dünyanın baş ağrısına çevrilən koronavirusun ölkəmizdə geniş yayıldığı dönəmdə sərt karantin qaydaları işə salındı. Xeyli müddət rayonlara gediş-gəliş qadağan edildi. Bir ildən artıq idi ki, rayona gedə, ailə və dostlarla əyani görüşə bilmirdik. Hər şey onlayn, hər yer onlayn... Cansıxıcı günlərdən biri idi. Şuşadan olan jurnalist dostum Seymur Əliyevə zəng açdım. Nədən danışdığımızı unutmuşam. Yadımda bircə detal qalıb:

- Seymur, xeyli vaxtdı rayona da gedə bilmirəm. Qazax, ev, ailə, ata ocağım üçün "burnumun ucu göynəyir".

Bu əsnada Seymur ah çəkir və həlim, kövrək səslə dillənir:

- Bəs mən nə edim? İllərdir, Şuşa niskili sinəmi güllə kimi dəlib keçir.

Mövzunu dəyişirik və...

Bu barədə 2 il öncə feysbukda status da paylaşmışam.

***

Xeyli vaxt, əvvəlin söhbətidir, yazıçı Seyran Səxavətlə dərdləşirdik. Mövzu Qarabağdan düşdü və soruşdum:

- Usta, nə olacaq bu işlərin axırı?

- Bala, dərd də namus kimidir, gərək özün çəkəsən - dedi.

İlahi, kədərin, iztirabın ağırlığına bax - Dərk və həzm etməyə çalışıram.

Seyran müəllim davam edir:

- Nə rus, nə fransız, nə ingilis, nə alman, nə amerikan, kimsə əvəzimizdən torpaq azad edən deyil, oğul. Bunu özümüz etməliyik, vəssalam!

Çox miskin mənzərə idi... Hə, o zaman bu fikir məni o qədər sarsıtmışdı ki, pessimizm iliyimə işləmişdi. Bu söhbətin tez bitməsini istəyirdim. Həzm edə bilmirdim. Namusunu qoruya bilməyən ölkə, xalq "ayaması" ilə yaşamağın məşəqqəti ağrıdırdı məni. Amma...

Şükür bu günə...

Niyə şükür?

Qarlı bir qış səhəri idi - 24 dekabr 2021-ci il, telefonuma zəng gəlir. Zərif səsli bir xanım cihazın o başından yüksək ovqatla dillənir:

- MEDİA Agentliyindən narahat edirəm, sizə şad xəbərim var.

- Buyurun...

- Hazırlaşın, sabah Şuşaya gedirsiniz! Ətraflı məlumat veriləcək.

Nə baş verdiyini anlamadım, donub yerimdə qaldım, anlaqsız şəkildə cavab verdim:

- Sağ olun, təşəkkür edirəm. *(Özümə gələndən sonra zəng edib, vəziyyəti izhar etdim və bir daha "Çox sağ olun" dedim).*

Yerimdən tərpənmədim, sanki ayaqlarım kilidləndi. Bir az düşündüm, özümə sual etdim: - Ayyət, Şuşayamı?

Tez evə qayıtdım:

- Sabah Şuşaya gedirik.

- Nə? Şuşa? - 6 yaşlı qızımın ilk reaksiyası belə oldu.

- Bəli, qızım, Şuşa...

Məktəbdən verilən "Xarı Bülbül" "znaçok"unu *(O simvol veriləndə demişdim, bu gül qələbəmizin simvoludur və yalnız Şuşada bitir, qızım. O üzdən Şuşa adı çəkilən kimi onu göstərir)* gətirir:




- Ata, bura gedirsiniz?

- Hə, qızım...

Xatirə: Dayım Birinci Qarabağ döyüşlərində iştirak edib. Savaş gedən ərəfədə bir neçə saatlıq icazə alıb, evə gəlmişdi. Anam qardaşına isti əlcək, corab toxumuşdu. Dayım bizə ayaqüstü dəyib, əlcəklə, corabı götürüb döyüşə yollanmalı idi. Elə hazırlaşırdı ki, çıxsın, xəbər gəldi:

- Şuşa da işğal olundu. Dayımın, atamın əlləri əsirdi, çənələri söz tutmurdu. Dərdi dərilərində yaşayırdılar sanki... Uşaqlar adətən aramsız suallar verirlər axı. Mən də sualların ard-arasını kəsmirdim:

- Şuşaya nə olub?

- Atam bircə kəlmə dedi: - Qarabağın gərdək otağıdır, bala. Getdi...

Taleyə bax ki, atam mənə Şuşanın qəhər xəbərini, mənsə övladıma Şuşanın zəfər və səfər xəbərini verirəm.

Şükür bu günə!

Ona şükür ki, jurnalistlər dekabrın 27-si saat 05:30-da "Azneft dairəsinə" toplanmalı idi. Həmin gün evdə dedim ki:

- Mən tez yatım, yuxudan erkən oyanmalıyam Şuşaya görə...

Di gəl, ilan vuran yatdı, mən gözlərimi belə qırpmadım. Yata bilmədim. Uşaq kimi qorxurdum, yuxu aparar, səfərdən qalaram...

Gəlib, deyilən məkana çatıram və çiyni çantalı bir xanım görürəm. Hamıdan qabaq gəlmişdi. Yaxınlaşıram:

- Salam, jurnalistsiniz?

- Qaqa, Əntiqə Rəşiddi, avtobusu gözləyirəm, Şuşa, Şuşa, Şuşa....

Xeyli söhbətləşirik...

Nəhayət, hamı toplaşır. Avtobuslar yola düzəlir.

Hələ ki, doğulduğum Qazaxa gedirmiş kimi hiss edirəm özümü. Xeyli yol qət etdik, yol kənarındakı "Füzuli Beynəlxalq Hava Limanı" yazılarını oxuyanda artıq ürəyim sinəmdə atmağa başladı. Yuxuda övladını əlləri ilə boğub, oyananda belə bir hadisənin baş vermədiyinə sevinən bir ata kimi sevinirəm. Və maşının aynasındakı pərdəni çəkib, gözümü yol kənarına dikirəm.

Gözlər dərinə işlədikcə sanki ağrının dozası da artır. Füzulidə şəhərmi qalıb? Füzulidə kəndmi qalıb? Füzulidə daş üstündə daşmı qoyublar? Bu 30 il müddətində ora nəfəsmi dəyib? Nəfəs dəyib, amma insanlığını "abort etdirmiş" vəhşi sürü nəfəsi. İlahi, bunlar nəinki türk insanına, türkün tikib-qurduğuna da amansız işgəncələr veriblər. Daşdan, qayadan da intiqam alıblar. Yol boyu dərin və uzun-uzun fikrə gedirəm. Qayğılar selində üzürəm, elə bil. Hər dağılmış, viran qoyulmuş ev gördükdə düşünürəm:

- Kim bilir, bəlkə də, bu evlərdəki beşiklərdə neçə-neçə körpələrə layla çalınıb, neçə-neçə körpə isti odun sobasının yanındakı yüyürükdə buxarlana-buxarlana, qığıldana-qığıldana böyüyüb, böyüdülüb. İndi o evlərdə nə istilik var, nə uşaq, nə uşaq yüyürüyü, nə odun "peçləri". Yalnız kərpic-kərpic sökülüb yanı üstünə atılmış daş yığını qalıb.

Yol boyu şücaətli əsgərlərimizin düşməndən azad etdiyi yaxın-yaxın qurulmuş postları, o postlardakı külə döndərilmiş düşmən hərbi texnikasını görürəm. Bütün postları bizim mövqelərdən yüksəkdə olub. Necə dərin vallar qazıblar, necə möhkəm, topdağıtmaz "dod"lar tikiblər. Adam bir an düşünür ki, bu qədər güclü istehkamları əsgərlərimiz necə yarıb? Sonra özümə cavab verirdim ki, bəli, məhz 44 günlük savaşda sinəsini qabağa verərək, qürurla "Mövzu vətəndirsə, dünyanın şah damarını da kəsərik" deyən oğullarımız azad edib bu torpağı. Axı dünya türkün verdiyi "Kişi sözünə" qibtə edir. Əsgərlərimiz sözün bütün mənasında ermənilərin şah damarlarını doğradılar.

Zəfər yolu ilə xeyli yol qət eləmişdik ki, maşın "qaynatdı". Baxın, texnikanın belə çıxa bilmədiyi yüksəkliyi vətənin mərd oğulları ayaqları ilə, döyüşə-döyüşə dırmaşıblar. İkinci Qarabağ döyüşü dünya hərb tarixinə həm də bu faktlara görə düşüb. Torpaqları təkcə "Haroplar", "Bayraqdarlar" azad etmədi. Ərazilərimizi qəlbi vətən eşqi ilə döyünən, adicə qara torpağa öz qanını qataraq onu Vətənə çevirən qardaşlarımız aldı.

Hə, qayıdaq səfərimizə...

Hamımız avtobusdan düşməli olduq.

İlk dəfə idi, Qarabağ havasını ciyərlərimə çəkirdim. Sanki hava deyildi minbir dərdin dərmanı idi. Hələ torpağın rəngini görəydiniz: qapqara... O torpağa ən çətin yetişən bitki toxumunu da atsan, məhsul verər. Necə bərəkətli, necə münbit torpağı var gözəlim Qarabağın. Başımı göyün ənginliklərinə dikib, səmasını seyr etdim Qarabağın. Qartallar süzürdü başımızın üstündə. Sanki onlar da ev sahiblərinin gəldiyini anlamışdılar. Bu məqam bir anlıq dayımın hər toyda Məhəbbət Kazımovun ifasında səslənən "Laçınım mənim" mahnısını "zakaz" verib dinlədiyini xatırlayıram. Demə yazıq dayım da Qarabağ səmalarında süzən bu qartalları deyirmiş.

Yenidən yola düzəlirik...

...Xocavənddəyik... Bu rayonun ərazisində də mənzərə təxminən eynidir.

Yerlə yeksan edilmiş evlər, qurudulmuş kövsər bulaqlar, gözü dolmuş su turbaları... Bu qədər istibdadın gözünlə şahidi olursan və qəhər zəli kimi adamın xirtdəyinə çöküb qanını sovurur. Amma insanıq da. Hər qaranlıqda bir işıq, ümid ipi axtarırıq. Əslində tapırıq və deyirik:

- Bu günə şükür.

Ona şükür ki, torpaqlarımız hürriyyətinə qovuşduğu gündən bu yana həmin ərazidə olduqca genişmiqyaslı abadlıq - quruculuq işləri aparılır. Ən müasir elektrik dirəkləri, xətləri çəkilib. Zavodlar tikilib, işə cəlb olunan şirkətlərin qarışqa fəaliyyəti eynəksiz də görünür. Ən əsası da Azərbaycan mədəniyyətinin qibləgahı, əfsanəvi Şuşaya şüşə kimi "Zəfər yolu" çəkilib. Hələ yeni yollar da çəkilməkdədir. Və Şuşanın girişindəyik.

Əsgərlərimiz təlimata uyğun yoxlamalar aparır.

Yolun sağında biz jurnalistlər və əsgərlərimiz dayanıb, sol tərəfdə isə rus sülhməramlılar. Arada bircə məftil "setka" var. O məftilin bu üzündən biz, o üzündən isə ermənilər hərəkət edirlər. Təbii ki, rus sülhməramlılar da onlara nəzarət edir. Nəyi sezdim? Yanımızdan ötüb-keçən ermənilərin baxışlarını görəydiniz. Necə əzgin, necə sınmış, necə gözüqıpıq, necə idbar, necə öləzimiş... Bəli, "Dəmir yumruq" başlarına elə zərbələr endirib ki, hələ də gözlərini tam aça bilmirlər.

*Bu məqamda maraqlı bir epizod yaşandı:*

Yanımızdan keçərkən gözlərini üzümə zilləyən erməniyə barmaq silkələdim. Bu an rus sülhməramlı əllərini yuxarı qaldırıb, havada çarpaz tutaraq, "qadağandır" işarəsini verir. Doğrudur, indiki kövrək məqam üçün, bəlkə də, adekvat addım deyil bu. Amma insanıq, emosiyaları cilovlamaq olmur axı. 30 illik işğalın qarşılığında bir barmaq silkələmək nədir ki?! Kaş ruslar Qarabağın işğalı dönəmində də arada dayanıb, təcavüzə imkan verməzdilər. Amma həmin dövrdə nəinki neytral mövqe tutdular, əksinə Qarabağı işğal edib, erməniləri ora yığdılar.

*Nəysə, qayıdaq mətləbə...*

Nəhayət daxil oluruq sevgili Şuşaya. Maşın sürətlə irəliləyir, az qalıram, sürücüyə yalvarım ki:

- Saxla buradan piyada gedək. Bəlkə, bizim maşınla keçdiyimiz yerdə hansısa əsgərimiz qan axıdıb, can verib, şəhid olub. Axı onun şəhidlik zirvəsinə ucaldığı yeri biz təkərlərlə basıb keçməli deyilik. Şəhidlərimiz ayağını basdığı yerə biz başımızı qoymalıyıq. İnanın, əlimdə əlac olsaydı, Şuşada dizin-dizin sürünüb, o torpaları qarış-qarış yalayardım.

Əlqərəz, "Qoç Ət" restoranına gəlirik. Əslində inanmıram ki, kimsə yemək düşünəydi. Hamı Şuşanı gəzmək istəyirdi. Tez-tələsik, hərə bir tikə alıb, çıxdıq Şuşa seyrangahına... İlk məkan Cıdır düzü oldu, məşhur Cıdır düzü. Kimi burada yallı oynadı, kimi Paşinyana cavab videosu çəkdi, kimi igidlərimizin bu qayalıqları necə dırmaşmağının "kod"larını açmağa çalışdı, kimi kəklikotu yığdı, kimi oradan Topxana meşəsinə baxıb köks ötürdü, kimi Daşaltı kəndinə boylanıb kövrəldi. Məni isə həmin an bircə məqam qayğılandırırdı:

haradan baxsam, Xankəndini daha aydın görə bilərəm. Və həmin nöqtəni tapıram, Cıdır düzündən Xankəndiyə boylanıram. Diqqətlə baxdıqda Xankəndidəki binalarda yaşayan ermənilərin zivədən paltar asdıqlarını belə görmək olurdu. Ağ yorğan üzü sərmişdilər. Öz-özümə dodaqaltı mızıldandım: Kəfəniniz olacaq o ağ "pastellər". Təsəvvür edirsiniz, Azərbaycan əsgəri, Azərbaycan lideri, Azərbaycan xalqı nələri əldə edib, nələrə nail olub. İllərlə televiziya kanallarından, sayt və qəzet manşetlərindən baxdığımız Cıdır düzündə dayanıb, Xankəndini düşünürsən. Görün, nələri bacarmışıq. Əminəm ki, bir gün Xankəndiyə səfər edib, oradan Zəngəzur, Göyçə və İrəvanı da seyr edəcəyik. Tarix təkrarlanmağı sevir. Bu tarix yaşanacaq, geci-tezi var.

Cıdır düzünün sehri bir başqadır, sanki adamı ağuşuna alıb sehrinə salır. Qış mövsümü olsa da, Cıdır düzündə əsl yaz havası vardı. Bir yanda qar, bir yanda günəş... Şuşada qışla yaz qoşalaşmışdı. Dastanların yazıldığı şəhərdə elə möcüzəvi məqamlar yaşanır ki, insan bunun real olduğuna inanmır.

Cıdır düzündə jurnalist dostumuz Şahin Qocayevlə bərabər addımlayırıq və bu an spontan olaraq ifaya başlayıram:

**Şuşanın dağları başı dumanlı,**
**Qırmızı koftalı yaşıl tumanlı...**

*Bu əsnada Şahin dillənir:*

- Qardaş, dayan-dayan.

- Nə oldu, Şahin? - Soruşuram.

Dinlə bir sənin ifa etdiyin mahnını oxudurlar.

Şuşada, Cıdır düzündə Şuşanın dağlarını ifa etməyin ayrı bir ləzzəti varmış. Həm də, elə ki, sən ifaya başlayırsan, səndən bir neçə saniyə sonra yüksək tonla avtomobildəmi, mağazadamı "Şuşanın dağları" səsləndirilir. Möcüzə deyilmi? Möcüzədir!

**Qeyd:** Uşaqkən evdə "Şuşanın dağları" mahnısını qım-qımı edib, oynayırdım. Atam imkan vermədi:

Bala, bu oynamalı deyil, ağlamalı havadı.

Dastanların yazıldığı şəhərin Cıdır düzündən enib, Vaqif Məqbərəsinə yollanırıq.

Yol boyu gülLədən canı deşik-deşik olmuş, şüşələri çiliklənmiş binalar görürük. Təsəvvür edirsinizmi, binaları da güllədən keçiriblər. O daşların dili olsaydı, nələr danışardı, nələr... Bu məqamda gözüm qara hərflərlə yazılan bir cümləyə sataşdı:

"Abbasov Teymur, qısasın alındı"

Bu əsnada inanın ki, dərd içimdə göz yaşımı elə dəmlədi ki... Hönkürmək istəyirdim, amma elə həmin divarın fotosunu çəkməklə özümə təskinlik tapıb, toxtadım. Baxın, şəhid olmuş bir qardaşının adını Şuşa divarlarına həkk etmək dastan yazmaq deyilmi? Bu qardaşlığın, birlik və həmrəyliyin təntənəsi deyilmi? Şəhidlərimizə olan ən böyük rəğbət deyilmi?

**Qızıl qeyd:** Şuşada güllələnən divarlara çoxlu sayda şəhid qardaşlarımızın adları yazılıb. Təklif edirəm ki, həmin binalar restavrasiya olunarkən o yazılar silinməsin, müasir üslubda bəzədilərək saxlanılsın. Onlar adi, sıradan cümlələr deyil axı... Tarixdir, tarix. Azərbaycanın qəhrəman övladlarının bir-birinə olan inamı, nisgili, sevgisi, ümididir.

Vaqif Məqbərisinə çıxıb, ruhumuzun durulduğu şəhərin Yuxarı Gövhər Ağa məscidinə üz tuturuq. Açığı öncə məscidə daxil olmadım. Kənarda dayandım. Düşündüm ki, qoy, adamlar seyrəlsin gedərəm. Düz qapısının ağzına qədər gedib, içəridən namaz qılanlara baxdım. Ən təsirli məqam orada peyda olan pişiyin namaz qılan insanların qucağına çıxması idi. Görünür, illərdir, bu pişik də sevgi, mərhəmət, qayğıdan "qısır" qalıb. Amma indi... Duaların qəbul olunduğu şəhərin məscidində hər kəs əlini Allaha elə açmışdı ki, sanki bu an duaları, istəkləri qəbul olunacaq. Anidən məndə belə fikir yarandı ki, bəlkə, Şuşa Allaha bir addım daha yaxındır. Şuşada döyüşən bütün hərbçilər deyirlər ki, döyüş ərəfəsində Allah da bizim tərəfdə olub. Nə bilim, bəlkə, doğrudan da Yuxarı Gövhər Ağadan Allaha məsafə daha yaxındır.

Hər halda əsgərlərimiz belə ərz edirlər.

Məsciddən çıxıb Şuşa Qala divarlarına gedirik. Yolboyu Şuşa çörəyinin ətri aləmi bürüyür. Hər kəs insana ekstaz bəxş edən o təravəti içinə çəkir. Gözəl Şuşamın ətri gəlir çörəkdən. Əksəriyyət Şuşa çörəyi alır.

Və Qala divarlarına çatırıq.

O divarlara ki, hər küncü, bucağı döyüşən əsgərlərə ana qucağı olub. Orada döyüşənlər danışırlar ki, o Qala divarları olmasaydı, həm itkilərimiz çox olacaqdı, həm də yaralılarımızı çıxara bilməyəcəkdik. Yəni görkəmli Mehmet Akif Ərsoyun şeirində deyildiyi kimi nəticə çıxarmalıyıq:

**Basdığın yerləri torpaq deyərək keçmə, tanı.**
**Düşün altında minlərcə kəfənsiz yatanı.**
**Sən şəhid oğlusan, incitmə yazıqdır atanı,**
**Vermə dünyaları alsan da, bu cənnət Vətəni.**

Artıq qaş qaralırdı. Qarabağımızda "Azərişıq"ın çəkdiyi işıqlar şəfəq saçırdı. Foto da çəkdirib doluşduq maşınlara və Bakıya uğurlandıq. Bir az gəlmişdik ki, maşınlara "durun" dedilər. Yeni yol çəkmək üçün qayaları partladırdılar. Təxminən 20 dəqiqə gözlədik, partlayış səsindən sonra yola davam etdik...

Yuxumuza girən şəhərdən qayıtdıq evimizə. Üstündən cəmi bir neçə saat keçməsinə rəğmən yuxuda görürəm Şuşanı. Yuxuda o qədər darıxıram ki, hövlnaq oyanıram. Babam Şuşa, atam Şuşa, adam Şuşa, sənə bir də gələcəyik, səni tək qoymayacağıq.

İndi Qazaxa getməyə də can atıram. Bilirsiniz niyə? Özümə söz vermişəm ki, kəndimizə girən kimi evə deyil, atamın məzarı üstünə gedəcəyəm. Sözüm var axı rəhmətliyə. Məzar daşını qucaqlayıb qulağına pıçıldayacağam:

**- Əziz atam, Qarabağın gərdək otağı azaddır və sənin oğlun Cıdır düzündə "Şuşanın dağları"nı oxudu. Rahat uyu, gözəl atam.**

*Hə, birdə bəziləri Şuşada üz-üzə gəlsək də, salam vermədiyimə görə məndən inciyib. Bildirirəm:*

- Salam vermədiyim adamlar, o mən olmamışam...

**Hazırladı: Ayyət Əhməd**

# Bu il Şuşaya qayıdış ili olacaq

## Bura səfər edənlər də şəhərin gözəlliyinə heyran olacaqlar



**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci il "Şuşa İli" elan edilib. Nazirlər Kabineti "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirməlidir.

**Sərəncamı yüksək qiymətləndirən millət vəkili Elman Məmmədov "Şərq"ə bildirib ki, 2022-ci ilin "Şuşa İli" elan olunması çox qiymətli və hamımızın ürəyincə olan bir qərardır:** "Əminliklə demək olar ki, şuşalılarımızın Şuşaya qayıdış ili olacaq. Şuşada bərpa-quruculuq işləri daha da sürətlənəcək. Şuşa yaşayış üçün tam hazır vəziyyətə gətiriləcək. Eyni zamanda bundan öncə də Cənab Prezidentimizin fərmanları ilə Şuşa tarix mədəniyyət mərkəzi, tarix mədəniyyət qoruğu elan olunub.

Şuşanın tariximizi əks etdirən formada tikilişinə çox diqqət yetirilir, belə də davam edəcək. Yəqin ki, tarixi şəxsiyyətlərin abidələri oraya yerləşdiriləcək. Arzuolunandır ki, Şuşanın işğaldan azad olunmasında igidlik, fədakarlıq göstərib, şəhidlik zirvəsinə ucalanların da xatirəsi Şuşa şəhərində öz əksini tapsın.

Küçə adları, müxtəlif barelyeflərlə, büstlərlə, xatirə kompleksləri ilə təşkil edilsin. Şuşa hazırkı sərəncama əsasən elə bir səviyyədə qurulacaq ki, ora səfər edənlər həqiqətən də Azərbaycan tarixini nümayiş etdirən mənzərələrlə qarşılaşacaqlar. Gözəlliyinə valeh olacaqlar.

Əsas məqam kimi vurğulamaq lazımdır ki, bu il "Şuşa İli"ndə şuşalıların Şuşaya qayıdışı ən yüksək dəyər, sevincli anlar olacaq".

**Sücayət Mehtili**

# Rus sülhməramlıları erməni silahlılarına açıq və gizli dəstək verir

## Qarabağdakı erməni quldurları məsələsi birbaşa Rusiya ilə müzakirə edilməlidir

**"Erməni xisləti hansısa normal münasibətə, dostluq əlaqələrinin qurulmasına imkan vermir". Bu sözləri Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə deyib. Partiya rəhbəri bildirib ki, hətta bundan sonra Ermənistanla qonşuluq əlaqələri bərpa olunsa belə, yenə də "çomağı əldən qoymaq" olmaz:**

"Əvvəla onu deyim ki, ermənilər əllərinə düşən ilk fürsətdə yenidən düşmən yanaşma sərgiləyəcək və bizi arxadan vuracaqlar. Hətta cəzaları ikiqat verilsə belə, müəyyən müddət sonra təxribat haqda düşünməyə başlayacaqlar. Məsələnin kökündə o dayanır ki, 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın ən mühüm müddəaları elə ilk saatlarda pozuldu. Bəyannamənin 4-cü bəndində konkret olaraq göstərilmişdi ki, "sülhməramlı" adlandırılan rusların ərazimizə daxil olması ilə paralel erməni silahlıları bölgəni dərhal tərk etməli idilər. Lakin bu, baş vermədi və müxtəlif bəhanələrlə üzərindən keçildi. Bir müddət sonra separatçılar erməni quldurlarını öz "orduları" adlandırmağa başladılar. Ən əsası isə rus sülhməramlıları erməni silahlılarına hərtərəfli açıq və gizli dəstək verməyə başladı. Hətta Rusiya Müdafiə Nazirliyinin rəsmi saytında "Dağlıq Qarabağın hərbi birləşmələri" sözü dəfələrlə təkrarlandı. Bununla kifayətlənməyərək, rəsmi Bakını ittiham etdilər. Azərbaycan Ordusunu Qarabağdakı "erməni hərbi birləşmələrinin mövqelərini" atəşə tutmaqda suçladılar. Atılan addımlar və açıqlamalar əsasən şüuraltına müəyyən mesajlar ötürməyə hesablanmışdı. Erməni quldurları və onların arxasındakı dairələr ardıcıl təxribatlarla öz çirkin əməllərini "adiləşdirməyə" başladılar. Buna birdəfəlik son qoymağın yeganə yolu erməni quldurlarını Qarabağdan rədd etmək, onlardan sui-istifadə hallarına imkan verməməkdir".




**A.Əlizadə vurğulayıb ki, Laçın dəhlizi tam olaraq Azərbaycanın nəzarətinə keçməyənədək, bu cür təxribat halları baş verəcək:** "Heç bir halda qarşısını almaq mümkün deyil. O baxımdan narahatlığımız çox böyükdür. Siyasi partiya olaraq aylardır israrla səsləndirdiyimiz təkliflərə reaksiya verilmir. Hansısa rıçaqlara malik deyilik ki, bununla bağlı konkret addımlar ataq. Dəfələrlə bəyan etmişik ki, Qarabağdakı erməni quldurları məsələsi birbaşa Rusiya ilə müzakirə edilməli və yekun qərar verilməlidir. Laçın dəhlizi tamamilə nəzarətimizə verilmirsə, heç olmasa rus hərbçilərlə birgə mütləq Azərbaycan Silahlı Qüvvələrinin də iştirakına imkan yaradılmalıdır. Əks halda bizim şikayətimizdən Rusiya sülhməramlıları separatçını saxlayır, sonra sərbəst buraxırlar. Problemin üzərinə getmək lazımdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**

Mələhət Rzayeva



# "Şuşa İli"ndən gözləntilərim böyükdür"

## Tahir İmanov: "Elə etməliyik ki, bütün dünya ilə yanaşı, bizim gənc nəsil də əsl Azərbaycan musiqisini tanısın, eşitsin, qulaq assın"

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.**

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynayıb. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır. Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilib. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət alıb, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlayan Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalıb. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılıb. Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilib, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılıb. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Sərəncama əsasən Nazirlər Kabinetinə tapşırılır ki, "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

Təbii ki, cənab Prezidentin məlum sərəncamı hər bir azərbaycanlını sevindirir, qürurlandırır. Şuşanın qəlbimizdə müstəsna yeri var və 2022-ci ilin "Şuşa İli" elan edilməsi də ümummilli bayram kimi qarşılanır.

**Prezidentin məlum sərəncamından böyük fəxr duyduğunu deyən əməkdar artist, "Planet Parni iz Baku" KVN teatrının bədii rəhbəri, əslən şuşalı, Xalq artisti, görkəmli bəstəkar Süleyman Ələsgərovun nəvəsi Tahir İmanov "Şərq"ə açıqlamasında qeyd etdi ki, "Şuşa İli" timsalında 2022-ci il Azərbaycan mədəniyyətinin daha bir təntənəsi olacaq:** - Əlbəttə, bir azərbaycanlı və əsli - həm ana, həm də ata tərəfdən şuşalı olan biri kimi çox sevinirəm. Bu, olmalıydı. Hamı bunu gözləyirdi. Yenə də, cənab Prezident 2022-ci ili "Şuşa İli" elan etməklə xalqın istəyini, arzusunu gerçəkləşdirdi. Bu, bütün xalqımız üçün qürurverici, sevindirici bir hadisədir. Biz ötən 30 il ərzində Şuşanın yubileylərini, "ad günləri"ni Şuşasız keçirirdik. 30 ildən sonra nəhayət, Şuşanın yubileyi, Şuşanın "doğum günü"nün 270-ci ildönümünü Şuşada, Şuşayla birgə keçirəcəyik. Bundan böyük sevinc, bundan böyük xoşbəxtlik ola bilməz. Mən nə gözləyirəm "Şuşa İli"ndən? Təbii ki, dövlət səviyyəsində lazımi tədbirlər keçiriləcək, sərəncamda da bunlar qeyd edilib. Hesab edirəm ki, "Şuşa İli"ndə hər bir aəzrbaycanlı Azərbaycan mədəniyyətinin təbliği üçün çalışmalıdır. Əsl Azərbaycan musiqisini, əsl Azərbaycan mədəniyyətini təbliğ edən tədbirlər olmalıdır. Teleməkanda, xüsusən də özəl televiziyalarda, bilirik ki, bayağı musiqi, bayağı mahnıların səslənməsi üstünlük təşkil edir, Azərbaycan musiqisinə aid olmayan harmoniya hökm sürür. Bu cür alaq otlarının fonunda qızılgüllərin açması əsl Azərbaycan mədəniyyətinin təbliği olacaq. Biz Azərbaycan mədəniyyətini tanıyırıq, çünki onu görmüşük, Azərbaycan musiqisinin əhatəsində böyümüşük, amma gənc nəsil bunları görməyib. Şəxsən mənim "Şuşa İli"ndən gözləntilərim böyükdür. Elə etməliyik ki, bütün dünya ilə yanaşı, bizim gənc nəsil də əsl Azərbaycan musiqisini tanısın, eşitsin, qulaq assın. Görsünlər ki, Azərbaycan musiqisi necə səslənir. Həm də peşəkarların ifasında. Dövlət Simfonik orkestri, kamera orkestri, xalq çalğı alətləri ansamblının ifasında Azərbaycan musiqisi doğma simasını tapacaq. Necə ki, biz bunu Şuşada keçirilən "Xarı bülbül" festivalında gördük, müşahidə etdik. Hesab edirəm ki, "Şuşa İli" Azərbaycan mədəniyyəti, incəsənətinin növbəti təntənəsi olacaq.

***"Teleməkanda, xüsusən də özəl televiziyalarda, bilirik ki, bayağı musiqi, bayağı mahnıların səslənməsi üstünlük təşkil edir, Azərbaycan musiqisinə aid olmayan harmoniya hökm sürür. Bu cür alaq otlarının fonunda qızılgüllərin açması əsl Azərbaycan mədəniyyətinin təbliği olacaq"***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Şəhər tez-tez iflic olur

## Tıxac problemi heç vaxt həll olunmayacaq



**Milli Məclisin sonuncu iclasında deputatlar növbəti dəfə Bakıdakı tıxaclardan şikayətləniblər. Millət vəkili Fazil Mustafa bildirib ki, Bakı şəhərində pik saatı anlayışı yoxdur, istənilən saatda tıxacda qalmaq mümkündür.**

Deputat əlavə edib ki, aidiyyəti qurumlar 2022-ci ildə problemin necə həll olunacağını insanlara izah etməlidir: "Biz intellektual idarəetmə əvəzinə cərimə yığma yolunu seçdik. Nə parklanma məsələsi həll oldu, nə tıxac məsələsi öz həllini tapdı. Saat 9-da işə başlayan məmur saat 7-də evdən çıxır ki, işə gecikməsin. Bakı şəhərini necə yüngülləşdirəcəyik ki, insanlar tıxacda bu qədər vaxt itirməsin?! Bu problemin həlli üçün insanlara konkret yol xəritəsi təqdim olunmalıdır. 4 saat tıxacda qalmaq iqtisadiyyata nə qədər ziyan vurur". Millət vəkili Razi Nurullayev isə qeyd edib ki, problemi tənqidlə həll etmək mümkün olmur: "İş saatlarını bölmək olar. Bəzi ölkələrdə insanlar iş saatlarını özləri seçir. Bizdə də bu təcrübəni tətbiq etmək olar. Saat 7-də işə gələn saat 3-də çıxsın. Bu dünyada tətbiq edilən mexanizmdir. İşçilərin bir hissəsinin iş saatı 8-də, 9-da, 10-da başlasın. Bunu biz də tətbiq etsək, insanlar 3-4 saat yollarda qalmazlar".

***"Bu sahə işi bilməyən şəxslərə həvalə olunub"***

**Davamlı gündəmə gələn tıxac problemi ilə bağlı fikirlərini "Şərq"ə bölüşən siyasi şərhçi Azər Həsrət tıxaclardan ən çox əziyyət çəkən şəxslərdən biri olduğunu deyib. Bəlli müddət yol mədəniyyəti ilə məşğul olan analitik bildirib ki, Bakı Nəqliyyat Agentliyi paytaxtdakı nəqliyyatı ümumiyyətlə idarə edə bilmir:** "Bir parklanma məsələsi nədir ki, illərlə həlli mümkün olmur. Avtobus dayanacaqlarından fərdi maşınların saxlanması məsələsi də illərdir çözülmür. Xeyli vaxt keçsə də, hələ də ictimai nəqliyyat tam olaraq kart sisteminə keçməyib. Bu, ondan xəbər verir ki, Agentlik işini bilməyən adamlar tərəfindən idarə olunur. BNA-ya səlahiyyət veriləndə, etimad göstəriləndə ümid edilirdi ki, qısa zaman sonra paytaxtdakı qarmaqarışıqlıq ortadan qalxacaq. Ancaq tamamilə əksini müşahidə etdik. Məsələ ondadır ki, tıxac təkcə nəqliyyatın problemi deyil. Bakıda xaotik tikintilər gedir. Bir də görürsüz, xəbərdarlıq edilmədən, nişan qoyulmadan yolun hansısa mühüm hissəsini bağlayıb, orada tikinti aparırlar. Sürücü həmin yerə çatanda bilir ki, yol bağlıymış. Bu da bəzi qurumların yarıtmaz idarəçiliyindən qaynaqlanır".

**A.Həsrət vurğulayıb ki, problemdən çıxış yolları mövcuddur:** "Dünyada Bakıdan dəfələrlə böyük şəhərlər var və həmin meqapolislərdə nəqliyyat həqiqətən idarə edilir. Bizdəki "donmuş" tıxaclar isə heç yerdə yoxdur, maşınlar uzun müddət kilidlənib yerində qalır. Nəqliyyatın yavaş hərəkəti normaldır və dünyanın hər yerində var. Amma bizdə yerindən tərpənmək mümkün olmur. Bəzən intensiv hərəkətli bir yol dəqiqələrlə bağlı saxlanılır. Sabiq nəqliyyat naziri Ziya Məmmədovun vaxtında yaradılan "Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi" adlı quruma ilkin 20 milyon dollar vəsait ayrılmışdı. Ortada heç bir nəticə yoxdur. Kim deyər ki, bu gün nəqliyyat intellektual idarə olunur?! Dayanacaqlarda monitorlar var, ancaq çoxu işləmir. Adi işıqforlar belə normal idarə olunmur. Pullar havaya sovrulub və hesabını soruşan yoxdur. Düşünürəm ki, Bakının nəqliyyat problemini kökündən həll etmək üçün bu sahə işi bacaran şəxslərə həvalə olunmalıdır".

**İsmayıl Qocayev**



# Komando hərbi hissələrin sayı artırılacaq

## Bu Quru Qoşunlarının ləğv edilməsi anlamına gəlməməlidir

**Müdafiə Nazirliyi Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işləri açıqlayıb.**

Nazirliyin Mətbuat Xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov bildirib ki, Azərbaycan Ordusunun müasir orduların modelinə uyğun yeni inkişaf mərhələsinə keçməsi üçün təşkilati-ştat strukturu təkmilləşdirilərək Quru Qoşunları Komandanlığı və yeni hərbi birlik yaradılıb.

A.Eyvazov deyib ki, azad edilən ərazilərdə dislokasiya olunan bölmələrin əməliyyat və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, həmçinin xüsusi şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə əməliyyat (komando) hərbi hissələri yaradılıb:

"Komandoların Türkiyədə müvafiq hazırlıq kurslarını keçməsi təmin edilib. Bu proses hazırda da davam etdirilir".

"Vətən müharibəsində əldə edilən təcrübələrin təhlili əsasında Türkiyə Silahlı Qüvvələrinin də modeli nəzərə alınaraq yeni döyüş təlimatları hazırlanır. Türkiyə Silahlı Qüvvələri zabitlərinin iştirakı ilə təşkil edilən bir çox kurslara xeyli sayda hərbi qulluqçunun cəlb edilməsi mütəxəssis hazırlığını da yeni səviyyəyə yüksəldib", - A.Eyvazov vurğulayıb.

**Komandoların Türkiyədəki təlimləri ilə bağlı "Şərq"ə danışan ehtiyatda olan zabit, hərbi ekspert Ədalət Verdiyev bildirib ki, gələcəkdə də Azərbaycan ordusu komando hərbi hissələrinin sayını artırmağa davam edəcək:** "Hazırda ordumuzda ən azı 3 komando hərbi hissəsi yaradılıb və onlar yeni inşa edilən hərbi şəhərciklərdə yerləşdirilib. Bu komando hərbi hissələrinin həyat və fəaliyyətini təmin etmək üçün bütün infrastruktur yenidən inşa edilib. Komando hərbi hissələrin sayının artması ilə Quru Qoşunlarının sayında müəyyən qədər azalma müşahidə edilə bilər. Lakin bu Quru Qoşunlarının ləğv edilməsi anlamına gəlməməlidir".

*Hərbi ekspert Azərbaycanla Türkiyə arasında kifayət qədər geniş hərbi əməkdaşlıqların mövcud olduğunu vurğulayıb:*

"Şuşa" bəyannaməsi də Azərbaycan hərbçilərinin Türkiyədə hazırlanması üçün daha münbit şərait yaradıb. Azərbaycan ordusunda həyata keçirilən digər fəaliyyətlər də Azərbaycan Ordusu ilə Türkiyə Ordusu arasında hərbi sahədə sinxronlaşdırmanı təmin etmək məqsədi daşıyır".

*Ə.Verdiyev qeyd edib ki, istənilən halda komando hərbi hissələrinin yaradılması müsbət haldır:* "Bu, Azərbaycan Ordusunun müdafiə qabiliyyətinin yüksəldilməsinə yönələn bir addımdır. Digər bir tərəfdən isə yaradılan yeni komando hərbi hissələri Xüsusi Təyinatlı Qüvvələr üçün kadr bazası rolunu da oynayacaq".

**Çimnaz ŞAHLAR**

# Azərbaycanı Avrasiya İqtisadi Birliyinə çəkirlər

## Turab Rzayev: "Ölkəmiz bu təşkilata yalnız Türkiyədən sonra qoşula bilər"



**Xəbər verdiyimiz kimi, dekabrın 28-də Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev də görüşdə iştirak edib. Sammitdə koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib və sonda MDB dövlət başçıları birgə foto çəkdiriblər.**

Xatırlayırsınızsa, görüş öncəsi sammitdə Azərbaycanın Avrasiya İqtisadi Birliyinə qoşulmasının müzakirə olunacağına dair fikirlər səslədirilirdi.

**Analitik Turab Rzayev mövzunu "Şərq"ə şərh edərkən bildirib ki, ölkəmiz Avrasiya İqtisadi Birliyinə indiki halda yalnız Türkiyədən sonra qoşula bilər:** "Əks halda gələcəkdə Azərbaycana ordakı ölkələrin iqtisadi və siyasi təzyiqlər göstərməsi mümkündür. Rəsmi Bakıdan hər hansısa bir Qərb dövlətinə qarşı, eləcə də NATO ilə qarşıdurmada iştirak istənilə bilər. Bu iqtisadi birlik olsa da, Rusiyanın formalaşdırdığı MDB ölkələrini nəzarətdə, vahid blokda saxlamaq və Qərbə qarşı Rusiya ətrafı blok yaratmaq üçün istifadə etdiyi təşkilatlardan biridir".

*T.Rzayevə görə, Azərbaycan Avropa İqtisadi Birliyinə daxil olmaq istəsə, o, öz fəaliyyətini Türkiyə ilə koordinasiya etməlidir:* "Bu bloka gələcəkdə Azərbaycanın, eləcə də Özbəkistanın da qatılması Azərbaycan və Qazaxıstan arasında, eyni zamanda, Türkiyə ilə Özbəkistan arasında iqtisadi əlaqələrin inkişafına səbəb ola bilər. Məsələn, Özbəkistan öz məhsullarını daha ucuz qiymətə Azərbaycana və Türkiyəyə ixrac edə, Azərbaycan isə Özbəkistana sərmayə qoya bilər. Könül istərdi ki, Türkiyə, Özbəkistan, Qazaxıstan və Azərbaycan özü bunu həyata keçirsin. Amma indiki halda Özbəkistan və Qazaxıstan Rusiyanın təsir dairəsindən kənarda bunu edə bilmir. Türkiyə həmin blokda olarsa, bu işi Rusiya ilə birlikdə də görmək mümkündür".

**Günəş Mərd**

# Cümhuriyyət heyranı...



## Görkəmli ictimai xadim Ramiz Abutalıbov heç vaxt unudulmayacaq

**Azərbaycan daha bir ziyalısını - Ramiz Abutalıbovu itirdi. Ramiz Abutalıbov Azərbaycan Xalq Cümhuriyyəti tarixinin görkəmli tədqiqatçılarından idi. Onun haqqında tərtib olunmuş nekroloqda qeyd edilir ki, Ramiz Abutalıbov 1937-ci il oktyabrın 27-də ziyalı ailəsində anadan olub.**

Azərbaycan Dövlət Universitetini (1960) bitirdikdən sonra təhsilini Moskvada Ümumittifaq xarici ticarət (1971) və İctimai Elmlər Akademiyalarında (1984) davam etdirib. 1980-1984-cü illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində xarici əlaqələr şöbəsinin müdiri, Azərbaycan SSR Ali Sovetinin Xarici İşlər üzrə Komissiyasının sədri vəzifələrində çalışıb. R.Abutalıbov 1971-1979, eləcə də 1985-1992-ci illərdə Parisdə Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət üzrə katibliyinin - YUNESKO-nun əməkdaşı olub. 1993-2004-cü illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri və YUNESKO üzrə Azərbaycan milli komissiyasının baş katibi vəzifələrində işləyib.

Ramiz Abutalıbov Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə süqutundan sonra mühacirətdə yaşamış ictimai-siyasi xadimlərinin həyat və fəaliyyətlərinin araşdırılmasında, xaricdə arxiv sənədlərinin tapılmasında xüsusi rol oynayıb. Bu sənədlərlə bağlı on iki kitabın müəllifidir. Onların səkkizi Moskvada, üçü Bakıda, biri isə İstanbulda çap olunub. Dağlıq Qarabağ münaqişəsinə dair 1989-1992-ci illərdə Fransada çap olunan dörd kitabın tərtibçisi və naşiridir.

Parisdə 1989-cu ildə "Azərbaycan evi" Assosiasiyasının yaradıcılarından biridir. O, Əlimərdan bəy Topçubaşova xatirə lövhəsinin, Fransanın azadlığı uğrunda həlak olan azərbaycanlılara Rodez şəhərində abidənin qoyulması, Fransada bir neçə mühacir həmvətənimizin qəbrinin bərpa edilməsində, "İçərişəhər" (2000-ci il) və "Muğam" (2003-cü il) sənətinin ümumdünya irsi siyahısına daxil edilməsinin əsas təşkilatçılarından biri olub. Ramiz Abutalıbov 2016-cı ilin oktyabr ayından Azərbaycan Respublikası Prezidenti təqaüdçüsü idi.

**Görkəmli ictimai xadimlə bağlı jurnalist Hafiz Əhmədov maraqlı xatirə paylaşıb:** "Nə bir dəfə görüşüb üzbəüz söhbət etmişdik, nə bir dəfə əlini sıxıb salamlaşmışdıq, bir yerdə çay içmişdik. Heç bilmirdim ki, harada, necə yaşayırdı. Tək bildiyim budur ki, Cümhuriyyətimizin qurucularının varisləri ilə müsahibələrimi yayımlayan kimi, həmin an inbox-a bir mesaj göndərərdi. "Təbrik edirəm", yazardı. Dəyərli məsləhətlərini qeyd edərdi. Hətta bəzən çox uzaq ölkələrdən elə müsahiblər tapırdım ki, müsahibə üçün suallar fikirləşə bilmirdim. Tez ona yazırdım ki, "mən ona hansı sualları göndərsəm daha maraqlı olar". İkimiz də səbirsizliklə müsahibəni, yəni suallarımıza cavabları gözləyərdik. Cavab gələn kimi ilk ona göndərirdim. Çox böyük həvəs və maraqla cavabları təhlil edərdi. Onun Cümhuriyyət sevgisi məni yeni-yeni müsahibələrə həvəsləndirərdi. Həmişə yazırdı ki, "davam elə". Hətta müsahibələrimi elə diqqətlə oxuyurdu ki, nöqtə, vergül, mənа səhvləri də gözündən yayınmırdı, tez yazırdı ki, "orda düzəliş elə..." Özümü o qədər məsuliyyətli hiss edirdim ki... Onun bir "təbrik edirəm", mesajı mənim yaradıcılığıma ən dəyərli qiymət idi, ən yüksək maaş idi, milyonlarla oxucu demək idi... Heç bilmirdim ki, harada yaşayır. "Facebook"la zəng edirdi, müsahibələrimlə bağlı məsləhətlər verirdi. Çox öyrəndim ondan, hələ də öyrənməli idim. İki gündür ki, onun göndərdiyi mesajları oxuyuram, hər cümləsi bir dərsdir. Ona həmişə yazırdım ki, "xahiş edirəm, mənə müsahibə üçün yeni adlar deyin, mən axtarıb tapacam". Kimi dedisə hamısını tapdım, dünyanın harasında olmasından asılı olmayaraq müsahibələr götürdüm. Elə təəccüblənirdi ki, yazırdı ki, "necə tapırsız onları?.." Bu gün qürur duyuram ki, ona ən gözəl müsahibələr oxutdum, təklif etdiyi bütün varisləri tapdım, müsahibələr götürdüm. Çox dəyərli insan idi, alim, diplomat idi. Ən əsası da əsl azərbaycanlı idi. Heç unutmaram, mən jurnalistikadan uzaqlaşmaq istəyəndə, başqaları ("alim") mənim əməyimi öz adına çıxanda, bəziləri yazılarımı "like" etmək üçün də qorxanda o, mənə bir cümlə mesaj yazdı: "Sən ruhdan düşmə, davam elə..." Son vaxtlar yazırdı ki, "geniş yazılar oxuya bilmirəm, ürəyim ağrıyır..." Hiss etmişdim hər şeyi. Çox təəssüflər olsun... Bu dünyadan, Azərbaycandan bir Ramiz Abutalıbov gəldi və getdi... Ruhun hər zaman şad olsun Ustad...

Görkəmli ictimai xadimin vəfatından kədərlənənlər çoxdur. "Mənə azərbaycanlı olmağı Ramiz müəllim öyrədib" yazanlar da var.

**Rəcəb Mahmud adlı sosial şəbəkə istifadəçisi isə yazır ki:** "Ramiz müəllimin hələ sovet dönəmində Parisdə cümhuriyyət tarixi ilə bağlı apardığı araşdırmalar o zaman üçün bizə böyük sürprizlər idi... Allah rəhmət eləsin... Çox böyük ziyalı idi".

**Tarixçi-alim Solmaz Rüstəmova - Tohidi isə gənclərin Ramiz Abutalıbovu bu şəkildə ehtiramla yad etmələrindən təsirlənərək yazıb:** "Vətənpərvər yaradıcı gəncləri çox sevirdi, hər birini diqqətdə saxlayırdı. Nə yaxşı ki, xatirəsini yaşadacaq gənc nəsil yetişib..."

*Ramiz Abutalıbov Bakıda II Fəxri Xiyabanda dəfn edilib. Onu da qeyd edək ki, tabutuna örtülən Cümhuriyyət dövründənqalma Azərbaycan bayrağını özünün çoxdan tədarük edərək saxladığı və etibarlı dostlarından birinə əmanət etdiyi də deyilir...*

***Allah rəhmət eləsin!***

**Məlahət Rzayeva**

## "Afaqı toya çağırsam da, gəlmədi"



**"Getdim 2 ay Moskvada qaldım. Toy yox idi, qalmışdıq belə. Təsəvvür edin, hər gün toydasan və birdən yox oldu. Başladım depressiyaya düşməyə".**

Bu sözləri müğənni Nadir Qafarzadə "Səhər mərkəzi" proqramında deyib. İfaçı oğlu Loğmanın toyuna gəlməyən sənət dostlarından bəhs edib: "Gəlib nə qədər pul yazdıracaqsan ki, məni təəccübləndirəcəksən? Mənə maraqlı pul yox, dostlarımın gəlməsidir. Gözüm qapıda qalmışdı. Afaq Gəncəlini, başqasını gözlədim. Bəziləri paketdə hədiyyə göndərdi, bunlar mənə önəmli deyildi. Gözləmirdim ki, Damla gəlsin. Onun heç bir məclisinə getməmişəm. Gəldi və sona kimi oturdu. Toyu bazarertəsi etdim ki, heç bir məşhurun işi olmasın. Dekabrın 20-də dostlarımı tanıdım. Bildim kim kimdir. Kimə daha çox addım atmaq lazımdır, kimə yerində. Toydan bir neçə gün əvvəl Elton Hüseynəliyev zəng etdi ki, toyu kim aparacaq? cavab verdim ki, Nicat adlı ifaçı. Qayıtdı ki, özüm gəlib aparacam. Onun böyüklüyü idi".

Afaq isə Nadirə "Çəkilişdə olduğum üçün gələ bilmədim. Əzizin toyunda gələcəm. Heç vaxt Nadir sözümü yerə salmayıb. Bu cür insanın toyuna gedə bilmədim" cavabını verib.

Vəli Səmədli, Sultan Quliyev, Piriş Qaraoğlu, Əmir Şahbuzlu, Aydın Xanəliyev Ordubad rayonunun Tivi kəndində yaşayan Mübariz Hüseynova əmisi

**Süleyman Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Elan**

İbrahimov Elman Mövlud oğlunun adına verilmiş sürücülük vəsiqəsi, avtomobilin texniki pasportu, şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

M.V.Lomonosov adına Moskva Dövlət Universiteti tərəfindən Əliyeva Elmira Bəxtiyar qızının adına verilmiş Diplom AAH 1514346 itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Qana susayanlar...

## Arvad ərini, ər arvadını, bacılar qardaşını baltaladılar

"İlk hadisələr "təsadüf", sonrakılar isə "planlı" olur"

**Yanvar ayının ilk günlərində Əhmədli qəsəbəsində ər arvadını balta və bıçaqla qətlə yetirib. Xətai Rayon Prokurorluğu 1991-ci il təvəllüdlü Həmidə Həsənovanın yaşadığı evdə öldürülməsi barədə daxil olan məlumat əsasında araşdırma aparıb.**

Nəticədə hadisəni törətməkdə şübhəli bilinən Orxan Əliyev saxlanılaraq istintaqa cəlb olunub. İstintaq zamanı O.Əliyevin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı H.Həsənovaya balta və bıçaqla çoxsaylı xəsarətlər yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Eləcə də yeni ilin ilk günlərində Ağstafa rayonunun Dağ Kəsəmən kəndində 1984-cü il təvəllüdlü Elvin Mübariz oğlu Abdullayev həyat yoldaşı Aynur Abdullayeva tərəfindən balta ilə öldürülüb. Faktla bağlı Ağstafa Rayon Prokurorluğunda araşdırmalara başlanılıb. Dünən isə Astara rayonunun Təngərud kəndində ruhi xəstə olduqları deyilən Nargilə və Nadirə bacıları Dağıstan Respublikasından yenicə qayıdan qardaşları İlkin Fariz oğlu Qənbərova balta ilə çoxsaylı bədən xəsarətləri yetiriblər. Hadisənin təfərrüatı hələlik tam bəlli deyil. Yaralı Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Faktla bağlı araşdırma aparılır.



**Psixoloq: "Cəmiyyət ətrafdakı psixi həssas insanlarla necə davranmalı olduqlarını bilməlidir"**

Maraqlıdır, son günlər ard-arda baş verən bu cür tükürpədən hadisələr nədən qaynaqlanır?

**Qanlı olayların artmasını "Şərq"ə izah edən psixoloq Əfsanə Rüstəmova bu xüsusda əvvəla medianın roluna diqqət çəkib:** "Adətən, belə xəbərlər yayımlandıqda cəmiyyət ikiyə bölünür. Birinci kateqoriya bu xəbərləri tirajlamaqda bir növ "dəlinin yadına daş salmaq", ikinci kateqoriya isə insanları pis vərdişlərdən çəkindirmək məqsədi güdür. Doğrudur, insanların özlərini qoruya bilməsi üçün belə xəbərlər mediada yer almalıdır. Lakin burda incə xətti qorumaq lazımdır".

**Psixoloqun qənaətincə, belə xəbərlərin təqdim olunma şəklində bir növ səbəblər də göstərilir və burda diqqət yetirməli olduğumuz xüsusi məqamlar var:** "Fikir verin, narkoman ər, psixi problemli bacılar, nitq qüsurlu övladı olan ailə və s. Amma bu "səbəblər"dən dünyada kifayət qədərdir. Bəs onlarda niyə eyni hadisələr yaşanmır? Deməli, problem nə narkomaniya, nə əqli qüsur, nə də digər amillərlə bağlıdır. Necə ki, cəmiyyət odun yanına pambıq, saman qoymaq olmaz! - misalını bilir, eləcə də ətrafındakı psixi həssas insanlarla necə davranmaq lazım olduğunu bilməlidir".

*Ə.Rüstəmova vurğulayıb ki, daimi özümüzü müdafiə halında yaşamaq istəmiriksə, ehtimal olunan təhlükələrdən öncə özümüzü sığortalamalı və lazımi instansiyalara müraciət etməliyik:* "Təəssüf ki, bəzi hadisələrin qarşısını ala bilmirik. Amma bu hadisələrdən sonra yaşama necə davam edilməlidir?! Bax bu barədə dəqiq düşünmək lazımdır. Çünki ilk hadisələr "təsadüf", sonrakılar isə "planlı" olur".

**Günəş Mərd**

# Hakerlər çox güclüdür

## Azərbaycan banklarının əksəriyyətində informasiya təhlükəsizliyi zəifdir



**Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Azərbaycanda iki şəxsin bank kartlarından oğurluq edilib.**

Əməliyyat-axtarış tədbirləri nəticəsində dekabrın 27-də Bakı şəhər sakini Z.Yusifovun bank hesabından 1 593 manat pul oğurlamaqda şübhəli bilinən V.Məmmədov müəyyən edilərək saxlanılıb. Digər məlumata görə, dekabrın 28-də Tovuz rayon sakini V.Əhmədovun bank hesabından 500 manat pul oğurlamaqda şübhəli bilinən F.Qənbərli müəyyən edilərək saxlanılıb.

Dünyanın bir çox ölkəsində kibercinayətkarlığa qarşı mübarizə aparılır. Fırıldaqçılıq halları son illərdə ölkəmizdə də müşahidə edilməyə başlayıb. Dələduzlar bank kartı məlumatlarını oğurlamaq üçün müxtəlif üsullara əl atırlar. Daha çox bank müştərilərini aldadaraq onların pullarını internet üzərindən ələ keçirməyi bacarırlar.

**Dələduzlardan qorunma yolları barədə "Şərq"ə danışan bank məsələləri üzrə ekspert Əkrəm Həsənov bildirib ki, Mərkəzi Bank nəzarəti gücləndirməlidir:** "Vətəndaşların bank kartından pul oğurlanması həm vətəndaşdan, həm də bankdan asılıdır. Məsləhət görürəm ki, bank istifadəçisi şifrəsini, pin kodunu heç kəsə deməsin.

***"Bankın təhlükəsizlik sistemi pis işləyirsə, bunun günahkarı vətəndaş olur"***

Banklarda belə bir sistem var ki, müştərinin kartından pul silinməzdən əvvəl telefonuna SMS gəlir. Əgər vətəndaş əməliyyatın icra olunmağını istəyirsə, təsdiq verməlidir, istəmirsə, rədd etməli və banka əməliyyat üçün müraciət etmədiyini bildirməlidir. Bu sistemdən istifadə etməyi hər kəsə tövsiyə edirəm.

Digər tərəfdən bəzi vətəndaşlar bütün lazımi tədbirləri gördüklərini söyləyirlər, lakin yenə də vətəndaşların bank hesablarından vəsaitlər oğurlanır. Artıq burada günahkar bankdır.

Qeyd etmək istəyirəm ki, Azərbaycan banklarının əksəriyyətində informasiya təhlükəsizliyi çox zəifdir. Hakerlər isə çox güclüdürlər. Zəif bank sistemlərinə daxil olaraq pul oğurlamaq onlar üçün asandır. Belə hadisələrin qarşısını almaq üçün bankların başlıca vəzifəsi möhkəm sistem yaratmaqdır.

Baş vermiş bir situasiyadan bəhs etmək istəyirəm. Deməli, ötən il Azərbaycan vətəndaşının kartında avqust ayından noyabra qədər 100-dən çox əməliyyat icra olunub.

Bankın müştərisi SMS sisteminə qoşulsa da, əməliyyat icra olunarkən ona SMS gəlməyib. Bankdan isə bildirilib ki, SMS daim göndərilir. Məhkəmələrin əksəriyyətinin bu barədə anlayışı olmadığı üçün bir qayda olaraq, bankın tərəfini tuturlar. Proses hələ bitməyib. Əgər vətəndaşın əleyhinə qərar qəbul edilərsə, məhkəmənin qərarını dərc edəcəyəm.

Qoy, hamı görsün. Vətəndaş təlab olunan hər şeyi edir, lakin bankın təhlükəsizlik sistemi pis işləyirsə, bunun günahkarı vətəndaş olur".

**Xanlar ƏLİBƏY**


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 16**



## 4 ildir köç etmir

### Leylək kəndin sevgisini qazandı

**4 il əvvəl Türkiyənin Hakkari bölgəsinin Yüksekova qəsəbəsində Bahadin Akış adlı vətəndaşın evinin damında özünə yuva quran leylək kəndin böyük sevgisini qazanıb.**

Yay, qış burada özünə məskən salan leylək indi kəndin ən sevimli canlısından biridir.

Payızda köçəri quşların getməsinə baxmayaraq kəndi tərk etməyən leyləyə kəndlilər gözü kimi baxır.

Qar yağmuruna və soyuq havalara baxmayaraq leylək kəndlilər tərəfindən çox vaxt balıqla bəslənir.

Bahadin Akış, leyləyi öz əlləriylə baxdığını ifadə edərək, "Leylək 4 il əvvəl köçlə kəndimizə gəldi. Ən gözəl tərəfi mənim evimin damında yuva qurmasıdır. Artıq o, bu kəndin bir fərdidir. Biz onu balıqla qidalandırırıq. O yuvasından çıxdığı zaman mən tez yuvasına balıqları buraxıram. Çox alışmışıq ona. Kəndə gələn vətəndaşlar onu görmədən getmirlər. Bizim də çağırışımız odur ki, çöldə qalan bütün canlılara mərhəmət edək ki, mərhəmətlə qarşılıq tapaq" deyir.

**Turan**

## ABŞ tarixində ilk yaşandı

### Nüvə gəmisini qadın idarə etdi





**ABŞ Hərbi Dəniz Qüvvələri tarixində ilk dəfə qadın nüvə gəmisinə komandanlıq edib.**

"Şərq" xəbər verir ki, kapitan Emi Bauernşmitd ABŞ Hərbi Dəniz Qüvvələri tarixində nüvə gəmisinə rəhbərlik edən ilk qadındır.

Kapitan E.Bauernşmitd bununla bağlı öz duyğularını ifadə edib: "Millətimizi qorumaq üçün seçilmiş insan olmaqdan gözəl və məsuliyyətli duyğu yoxdur. Donanmadakı ən gözəl gəmini mənə etibar etdiyiniz üçün təşəkkürlər".

E.Bauernşmitdin karyerası ərzində 3000-dən çox səfər saatı keçdiyi bildirilir.

ABŞ Hərbi Dəniz Qüvvələrindən verilən açıqlamaya görə, USS Abraham Lincoln nüvə gəmisi kapitan Emi Bauernşmitdin komandanlığı ilə dünən San Dieqoya yerləşdirilib.

**Çimnaz ŞAHLAR**



# ÜST xəbərdarlıq edib

## Daha təhlükəli koronavirus variantları yarana bilər

**Koronavirusun "omikron" ştamı nə qədər sürətlə yayılarsa, virusun yeni variantlarının yaranma ehtimalı da bir o qədər yüksək olacaq.**








Bu barədə xəbərdarlığı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fövqəladə hallar üzrə eksperti Katerin Smollvud edib. AFP agentliyinə verdiyi müsahibədə ekspert bildirib ki, hazırkı dövr olduqca təhlükəli bir mərhələdir, çünki Qərbi Avropada infeksiyaya yoluxma hallarının sürətlə artımı müşahidə olunur və onun hansı təsirləri olacağı hələ aydın deyil.

Ekspertin sözlərinə görə, "delta" ştamı ilə müqayisədə "omikron"a yoluxmalar nisbətən az riskli hesab olunur. Lakin bu ştama yoluxmalar tempi və sayın çoxluğu daha böyük bir bəlaya yol aça bilər.

Qeyd edilib ki, pandemiya başlayandan bəri Avropada virusa yoluxanların ümumi sayı 100 milyon nəfəri keçib, onlardan 5 milyonu isə 2021-ci ilin son həftəsində qeydə alınıb. K.Smollvudun sözlərinə görə, Böyük Britaniyada müşahidə olunan tibbi heyət çatışmazlığı digər ölkələrdə də baş verə bilər. "Omikron" ştamının sürətlə yayılması bir tərəfdən səhiyyə sisteminin yüklənməsinə səbəb olur, digər tərəfdən isə yeni virus variantlarının yaranmasına yol aça bilər.

## Kuryoz hadisə

### Doğum illəri fərqli olan əkizlər doğuldu



**Kaliforniyada 2021-ci il tamam olanda doğulan əkizlərin birinin doğum ili 2021, digəri isə 2022-ci il qeyd olunub.**

**Doğum sənədində fərqli illər göstərilən əkizlər 15 dəqiqə fərqlə dünyaya gəlib.**

**Belə ki, oğlan Alfredo 31 dekabrda saat 23:45-də, bacısı Aylin isə 1 yanvar saat 00:05-də doğulub. Əkizlərin anası Fatima Madriqal uşaqlarının yeni il gecəsi, fərqli tarixlərdə doğulmasına şaddır.**

**Tibdə belə bir fürsət 2 milyon əkizdə bir dəfə rast gəlinir. Əsasən gecə yarı baş tutan doğuşlarda belə vəziyyət yaranır. (medicina.az)**

## "Sony" şirkəti elektromobil istehsalına başlayır



**Yaponiyanın "Sony" şirkəti 2022-ci ilin yazından etibarən elektromobil bölməsi yaradacaq.**

**Oxu.az bildirir ki, "Sony"nin elektromobil bazarına çıxmaq niyyətini şirkətin rəhbəri Kenitiro Yosida Las-Veqasda keçirilən "Consumer Electronics Show" (CES) sərgisində dilə gətirib.**

**"Biz "Sony" elektrik avtomobillərinin istehsalına başlamağı düşünürük" - deyə şirkət rəhbəri Kenitiro Yosida vurğulayıb.**

## Ən gəlirli 3 iş...

### 2022-ci ilin ən tələbatlı peşələri açıqlandı




**Kvalifikasiya olmayan kadrlar, yəni ciddi ali təhsil , peşəkarlıq tələb etməyən işlər 2022 və hətta 2023-cü ildə ən çox tələb edilən sahələr olacaq.**

**Medicina.az xəbər verir ki, bu barədə rusiyalı rekrutor İlqiz Valinurov açıqlama verib.**

**Hazırda bazarda ən öndə olan peşələr - taksi, kuryer, satıcı işidir.**

**2022-ci ildə alış-veriş aktual olacaq, eləcə də marketoloq, reklam mütəxəssisi, onlayn ticarət üzrə ekspertlərə tələbat olacaq.**

**Loqistika, çatdırılma xidməti, rəqəmsal transformasiya trenddədir.**

**İnsanlar şəxsi avtomobilin sərfəli olmadığı qənaətinə gəlib, ucuz taksi xidmətinə axın edir. Ona görə taksi sahəsi və burda işləyənlərin həmişə işi olacaq.**





## Boyunlarından şəkillərini asıb küçə ilə dolaşdırırlar

### Karantin qaydalarını pozanlara qarşı ictimai qınaq üsuluna əl atılıb



**Koronavirusun Vətəni Çindən heyrətli fotolar paylaşılır. Dünya yenə "donub qalıb". "Şərq" xarici mediaya istinadən bildirir ki, Çinin Jingxi şəhərində karantin qaydalarına saymaz yanaşanlara, qaydaları pozanlara qoruyucu xüsusi libaslar geyindirilib və onlar öz fotoları boyunlarında asılı vəziyyətdə küçələrdə dolaşdırılıb.**

Şəhər idarəçiləri bu addımı son zamanlar COVİD-19-un "Omicron" variantının sürətlə yayılmasıyla izah edir. Dünya Səhiyyə Təşkilatı "Omicron" variantının özüylə gətirdiyi yeni yoluxma dalğasını "tsunami" adlandırıb. DST-nin rəhbəri deyib ki, "Omicron"la "Delta"ya artıq əkiz variantlar kimi baxılır. Bu iki variantın birlikdə yayılması isə dünya üçün əsl tsunami fəlakəti ola bilər. Son günlərdə Avropa ölkələri və ABŞ-da "Omicron"a yoluxma sayında kəskin artım müşahidə edilir. Lənətə gəlmiş koronavirusun Vətəni Çindən isə ürküdücü görüntülər yayılır. Çin hökuməti yoluxmanın qarşısını almaq üçün şəhərlərə giriş-çıxışı bağlayır, evə qapanmaları məcburi edir, bununla da kifayətlənməyərək karantin qaydalarına saymazyana yanaşan, qaydalara riayət etməyənlərə qarşı ictimai qınaq üsuluna əl atır. Bu üsullardan biri də "utanc yürüşüdür". Bu, qayda pozucularının ictimaiyyət qarşısında ifşa edilməsidir. Belə adamlar xüsusi qoruyucu libas geyindirilərək, fotoları da boyunlarından asılmış halda polisin müşayiəti ilə küçələrdə dolaşdırılır. Küçədə dolaşdırılanlar arasında cəza alan 4 nəfər də var. Bu adamları silahlı polislər müşayiət edir. Utanc tablosundan görüntülər sosial şəbəkələrdə də yayılıb və dünyada böyük əks-səda doğurub. Çin hökumətinin bu addımını insan haqlarına həqarət hesab edənlər də var. Qeyd edilir ki, Çində utanc yürüşləri 2010-cu ildən qadağan edilib. Lakin bəzi yerli icra orqanları qadağaya əməl etmir, əksinə tətbiq edir.

**Məlahət**

## Dəyəri 2 milyon dollardır

### Polis üzərində möhür olan timsah dərisinin satışa çıxarılmasının qarşısını alıb



**Türkiyənin Diyarbəkir şəhərində polis əməkdaşları oğruları iş başında yaxalayıb.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən qeyd edir ki, Diyarbəkir polisi keçirdiyi xüsusi əməliyyatla tarixi əsərin satışa çıxarılmasının qarşısını alıb. Söhbət dəyəri 2 milyon dollar olan, Roma imperatorluğu dönəminə aid, üzərində ərəb qrafikasıyla möhür olan timsah dərisi və tunc lövhədən gedir. Polisə şübhəli 4 şəxsin antiq əşyaları satmaq üçün müştəri axtardıqlarına dair məlumat daxil olub. Həmin 4 nəfər polis tərəfindən keçirilən əməliyyatda yaxalanıb. Polis onları təqib edib. Şübhəli şəxslər Bağlar bölgəsi, Alankoz Məhəlləsində tarixi əşyaları satmağa çalışarkən saxlanılaraq polis şöbəsinə gətiriliblər. Şəxslərin mindiyi avtomobildə aparılan axtarış zamanı yuxarıda adı çəkilən əşyalar tapılıb. Tarixi əşyalar Diyarbəkir Muzey Müdirliyinə təhvil verilib.

**Məlahət**

## Aleyna onunla sevgilidir





**Türkiyəli müğənni Aleyna Tilki yeni eşqə yelkən açıb.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, ifaçının "Uzi" ləqəbi ilə tanınan reper Utku Yalçınkaya ilə münasibətdə olduğu iddia olunub. Cütlüyün 15 gündür münasibətdə olduğu bildirilib.

İkili haqqında iddialar sosial media paylaşımları zamanı ortaya çıxıb.

## Reper mənzilini 22,5 milyona satacaq



**Kanadalı reper "The Weeknd" Los-Ancelesdə yerləşən mənzilini satışa çıxarıb.**

Axşam.az xəbər verir ki, göydələnin üst mərtəbələrində yerləşən 750 kvadratmetrlik mənzil dörd yataq və səkkiz vanna otağından ibarətdir.

İfaçı evi 22,5 milyon dollar müqabilində yeni alıcıya təqdim edəcək.

*Qeyd edək ki, müğənni sözügedən mənzili 2019-cu ildə 21 milyon dollara satın alıb.*